HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 50 (841) ▪ 21 dekabr 2016 | www.vergiler.az | Qiyməti: 55 qəp.


# İqtisadi islahatların qanunvericilik əsasları təkmilləşdirilir

## *Antiböhran tədbirləri yeni makroiqtisadi şəraitə uyğunlaşdırılır*

Milli Məclisdə qəbul olunmuş dövlət büdcəsi ölkəmizin xərcləri və onların ödənilməsi mənbələri üzrə illik maliyyə planıdır. Məqsədi dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini, iqtisadi, sosial və digər strateji proqramların maliyyələşdirilməsini təmin etməkdir. Büdcə həm də iqtisadi-sosial inkişaf proseslərini tənzimləyən maliyyə vasitəsidir. Ona görə hər bir ölkənin iqtisadi siyasətində və bütövlükdə inkişaf kursunda mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri dövlət büdcəsində qarşıya qoyulan vəzifələrdir.



**Qlobal iqtisadi çağırışlar ölkəmizdən də yan keçmir**

Təsadüfi deyil ki, dövlət büdcəsinin layihəsinin və bununla bağlı digər məsələlərin müzakirəsi hər bir ölkədə diqqətlə qarşılanır. Azərbaycanda da dövlət büdcəsinin layihəsi Milli Məclisin plenar iclasında ətraflı müzakirə olundu. Görünən odur ki, dövlət büdcəsinin tərtibi zamanı milli iqtisadiyyatda, eyni zamanda, dünya maliyyə bazarlarında baş verən bütün meyillər diqqətlə təhlil edilib və nəzərə alınıb.

Məlum olduğu kimi, bu il də dünyanın əksər ölkələrinin iqtisadiyyatında inkişaf templəri azalıb, makroiqtisadi göstəricilər zəifləyib. Azərbaycan da dünya birliyinə, beynəlxalq iqtisadi sistemə geniş inteqrasiya etdiyindən qlobal miqyasda baş verən proseslərin ortaya qoyduğu reallıqları bölüşən iştirakçısına çevrilib. Ona görə bu, reallıqlar zəminində dünya iqtisadiyyatında baş verən yeni iqtisadi təlatümlər və çağırışlar sözsüz ki, ölkəmizdən də yan keçmir. Xüsusən dünya bazarında xam neftin qiymətində kəskin dəyişikliklər baş verib, «qara qızıl» üç dəfədən çox ucuzlaşıb, əsas ticarət tərəfdaşlarımızın milli valyutalarının devalvasiyası baş verib. Təbii ki, bu, Azərbaycana da təsirsiz ötüşməyib və xarici valyuta daxilolmalarının azalmasına səbəb olub.

Azərbaycanın gələn ilki dövlət büdcəsinin tərtibi zamanı bütün bunlar bir daha təhlil edilib. Söhbət, qeyd etdiyimiz kimi, dünyadakı maliyyə böhranı və onun nəticələrindən, o cümlədən neftin qiymətinin aşağı düşməsindən gedir. Azərbaycan hökuməti bu reallığı nəzərə alıb və ona görə də baş verə biləcək risklərin təsirini azaltmaq üçün gələn ilin büdcəsinin tərtibinə ehtiyatla yanaşıb. Xatırladaq ki, Tarif Şurasının qərarı ilə bir sıra enerji məhsulları üzrə tariflərin diferensiallaşdırılmasından sonra 2017-ci ilin dövlət büdcəsi gəlirlərinin artırılması zərurəti yarandı və elə Milli Məclisin plenar iclasında gəlirlərin 16 milyard 255 milyon manat məbləğində proqnozlaşdırılması elan olundu.

2017-ci ilin dövlət büdcəsinin xərcləri 16 milyard 900 milyon manat təşkil edəcək. Növbəti ildə dövlət və icmal büdcələrin xərclərinin azalması fonunda xərclərin daha səmərəli istifadəsi ön plana çəkilib və optimallaşdırılmasına diqqət yetirilib. Gələn il büdcədə sosial müdafiə və ona bərabər tutulan məqsədlər üçün ayrılan, habelə məqsədli dövlət proqramlarına yönəldilən vəsait istisna olmaqla, digər xərclərdə ixtisarlar olacaq. Lakin ölkənin müdafiə qüdrətinin, milli təhlükəsizliyinin gücləndirilməsi üçün büdcədən lazımi qədər vəsait ayrılıb. Bu baxımdan, büdcə siyasətinin xərclər üzrə əsas istiqamətləri nəzərdə tutulan bütün sosial öhdəliklərin yerinə yetirilməsi, xüsusən əhalinin həssas qruplarının sosial təminatının gücləndirilməsi, əsas dövlət proqramları və mühüm investisiya layihələrinin həyata keçirilməsinin davam etdirilməsi, ölkəmizin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi üçün maliyyə təminatının yaradılması dövlət büdcəsində əksini tapıb.

**Gələn ilin dövlət büdcəsində sosial xərclərin 40,3 faiz təşkil etməsi sosial rifahın yaxşılaşdırılmasının dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir**

Milli Məclisdə müzakirələr zamanı deputatlar bildiriblər ki, 2017-ci ilin dövlət büdcəsi mövcud reallıqlar, neft gəlirlərinin azalması, dünyada dərinləşən maliyyə-iqtisadi böhranın təsirləri nəzərə alınmaqla tərtib olunmuş büdcədir. Peşəkarlıqla hazırlanmış bu maliyyə sənədi növbəti ildə iqtisadiyyatın inkişafına və sosial müdafiənin təmin edilməsinə imkan verəcək. Büdcənin sosialyönümlülüyü sayəsində hər bir ailə dövlət qayğısı ilə əhatə olunacaq. Büdcədə sosial xərclərin 40,3 faiz təşkil etməsi sosial rifahın yaxşılaşdırılmasının dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir.

**Vergi yükü azaldılır, vergi inzibatçılığı sadələşdirilir**

Təbii ki, 2017-ci ilin dövlət büdcəsi ölkəmizdə həyata keçirilən yeni iqtisadi islahatların uğurla reallaşmasına təkan verəcək. Bununla yanaşı, iqtisadi islahatların digər istiqamətlərdə də qanunvericilik əsaslarının təkmilləşdirilməsi diqqət mərkəzindədir.

Milli Məclisdə Vergi, Mülki-Prosessual, Cinayət, İnzibati Xətalar məcəllələrində, habelə «İcra haqqında», «Dövlət rüsumu haqqında», «Elektron ticarət haqqında», «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında», «Ətraf mühitin mühafizəsi haqqında», «Nəşriyyat işi haqqında», «Lotereyalar haqqında», «Təhsil haqqında», «İcbari sığortalar haqqında» qanunlara edilən dəyişikliklər, eləcədə «Nağdsız hesablaşmalar haqqında» yeni qanunun qəbulu göstərir ki, antiböhran tədbirləri yeni makroiqtisadi şəraitə uyğunlaşdırılır. Belə ki, qanunvericiliyə edilən dəyişikliklər son illərdə neftin ucuzlaşmasının, qlobal sarsıntıların ölkəmizə təsirlərini azaltmağa, davamlı inkişafa xidmət edir.

Dəyişikliklər və yeni qanun nağd hesablaşmaların məhdudlaşdırılması, elektron ticarətin vergiyə cəlb olunması, vergi yükünün azaldılması, vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanlarının göstərdiyi xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədinə xidmət edir. Məsələn, Vergi Məcəlləsinə 115 yeni maddə, 83 dəyişiklik, 3 maddənin ləğvi də daxil olmaqla 201 dəyişiklik edilib. Bunlardan 123 maddə vergi inzibatçılığının təkmilləşdirilməsini, uçot-qeydiyyatın asanlaşdırılmasını, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsini, 8 maddə vergi yükünün azaldılmasını, azadolma və güzəştlərini əhatə edir.

**Vergi Məcəlləsinə 115 yeni maddə, 83 dəyişiklik, 3 maddənin ləğvi də daxil olmaqla 201 dəyişiklik edilib. Bunlardan 123 maddə vergi inzibatçılığının təkmilləşdirilməsini, uçot-qeydiyyatın asanlaşdırılmasını, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsini, 8 maddə vergi yükünün azaldılmasını, azadolma və güzəştlərini əhatə edir**

Vergi Məcəlləsinə əsasən, ticarət şəbəkələri satış üzrə ümumi dövriyyədən ƏDV hesablamalı olurdular. Bu da pərakəndə satışda bahalaşmaya səbəb olurdu. Qeyd edilənləri nəzərə alaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olanlardan Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV-nin həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni, ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar məcəlləyə daxil edilib.

Dəyişikliklərə əsasən, icbari tibbi sığorta və səhiyyə, tibb xidmətləri göstərən səhiyyə qurumlarının gəlirlərinin mənfəət vergisindən müddətsiz, buğdanın istehsalının və satışının buğda ununun istehsalının və satışının, quş ətinin isə satışının üç il müddətinə ƏDV-dən azad edilməsi ilə bağlı müddəalar məcəllədə əksini tapıb. Həmçinin banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin gəlir vergisindən azad edilməsi müddəti beş ilə qədər, yəni 2021-ci ilin fevralınadək artırılır.

***«Azərbaycan» qəzeti***

*20 dekabr 2016-cı il*

# Rusiya-Azərbaycan əlaqələri yeni istiqamətləri əhatə edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin daim yüksək səviyyədə əməkdaşlıq, dostluq, qarşılıqlı anlaşma prinsipləri ilə xarakterizə olunduğunu bildirərək, bu prinsiplərin əlaqələrimizin müxtəlif istiqamətləri, o cümlədən siyasi, iqtisadi, ticarət, energetika sahələrində sıx fəaliyyət ənənələri əsasında uğurla inkişaf etdiyini vurğulayıb. Azərbaycanın Rusiya ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində maraqlı olduğunu deyən dövlətimizin başçısı bildirib ki, bu əlaqələr son dövrlərdə daha sürətlə inkişaf edir.

Rusiya Federasiyası Baş nazirin müavini Dmitri Roqozin Hökumətlərarası Birgə İqtisadi Komissiya çərçivəsində mütəmadi iclasların keçirilməsinin zəruriliyini qeyd edərək bildirib ki, komissiya iqtisadi, ticarət, elmi-texniki, mədəniyyət sahələrində əməkdaşlıqla yanaşı, həmin məsələlərin operativ şəkildə həll edilməsində önəmli bir orqana çevrilib. Qeyd olunub ki, Rusiya-Azərbaycan əlaqələri artıq yeni istiqamətləri əhatə edərək yüksək texnologiyalar sahəsində də əməkdaşlıq üçün geniş imkanlar açır.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *D.MakDyu:* Azərbaycan strateji baxımdan çox əhəmiyyətli ölkədir

Prezident İlham Əliyev dekabrın 16-da ABŞ-ın nəqliyyat komandanı general Darren MakDyunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında müdafiə sahəsində, xüsusilə nəqliyyat komandanlığı ilə yaxşı tarixə malik əməkdaşlığın möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib, səfər zamanı görülmüş işlərin nəzərdən keçirilməsinin və gələcək planların müzakirəsinin əhəmiyyətini vurğulayıb, Azərbaycanın bütün istiqamətlərdə, o cümlədən nəqliyyat sahəsində etibarlı tərəfdaş olduğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycan hərbçilərinin Əfqanıstanda sülhyaratma missiyasında ilk iştirak edənlərdən olduqlarını və 15 ildir orada fəaliyyət göstərdiklərini vurğulayaraq, bunun Azərbaycan-ABŞ və Azərbaycan-NATO əməkdaşlığının əhəmiyyətli hissəsi olduğunu deyib. Əfqanıstana həsr olunan NATO Sammitində iştirakına toxunan dövlətimizin başçısı bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğulayıb, son illərdə Azərbaycan ilə Əfqanıstan arasında çox uğurlu əməkdaşlıq həyata keçirildiyini qeyd edib.

General Darren MakDyu Azərbaycanın strateji baxımdan çox əhəmiyyətli bir ölkə olduğunu qeyd edib. O, güclü əməkdaşlıq əlaqələrinə görə Prezident İlham Əliyevə minnətdarlıq edərək bunun təkcə öz ölkəsi üçün deyil, Əfqanıstana dəstək verən bütün dövlətlər üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb. General Darren MakDyu Əfqanıstana Qətiyyətli Dəstək Missiyasının komandanının Prezident İlham Əliyevə Azərbaycan hərbçilərinin Əfqanıstanda iştirakına və peşəkar xidmət göstərdiklərinə görə təşəkkürünü çatdırıb.

## BU NÖMRƏMİZDƏ


MİLLİ MƏCLİS VERGİ QANUNVERİCİLİYİNƏ TƏKLİF OLUNAN ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİ QƏBUL ETDİ — 2

«VERGİLƏR» MÖVZUSUNDA KEÇİRİLƏN ƏNƏNƏVİ OLİMPİADAYA YEKUN VURULDU — 3

AZƏRBAYCANDA VERGİ RİSKLƏRİNİN TƏHLİLİ SİSTEMİ AVROPA STANDARTLARINA UYĞUNDUR — 4

BU İLİN YANVAR-NOYABR AYLARI ÜZRƏ BÜDCƏ TAPŞIRIĞI TAM İCRA OLUNUB — 5

# Milli Məclis vergi qanunvericiliyinə təklif olunan əlavə və dəyişiklikləri qəbul edib

Dekabrın 14-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasda çıxış edən vergilər naziri Fazil Məmmədov vergi qanunvericiliyinə təklif edilən əlavə və dəyişikliklər haqqında məlumat verərək bildirib ki, təqdim edilmiş qanun layihələri nağd hesablaşmaların azaldılması, elektron ticarətin vergiyə cəlb olunması, vergi yükünün azaldılması, vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanlarının göstərdiyi xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədinə xidmət edir. Vergi Məcəlləsinə 115 yeni maddə, 83 dəyişiklik, 3 maddənin ləğvi də daxil olmaqla 201 dəyişiklik nəzərdə tutulur. Bunlardan 123 maddə vergi inzibatçılığının təkmilləşdirilməsi, uçot-qeydiyyatın asanlaşdırılması, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8 maddə vergi yükünün azaldılması, azadolma və güzəştləri əhatə edir.

Qanun layihəsində vergi yükünün azaldılması və pərakəndə ticarət fəaliyyətində əlavə dəyər vergisinin ticarət əlavəsindən hesablanması məsələləri öz əksini tapıb. Bildirilib ki, kənd təsərrüfatı məhsulları istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilib. Həmin məhsullar ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən digər məhsulların satışı kimi bu məhsulların da tam dəyəri ümumi qaydada əlavə dəyər vergisinə cəlb edilib.

F.Məmmədov qeyd edib ki, Vergi Məcəlləsində ƏDV tutulan əməliyyatların dəyərinin müəyyən edilməsinin başqa qaydası nəzərdə tutulmadığından ticarət şəbəkələri kənd təsərrüfatı məhsullarının satışı üzrə ümumi dövriyyədən ƏDV hesablamalı olurdular. Bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olurdu. Qeyd edilənləri nəzərə alaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olanlardan Azərbaycan Respublikasında istehsal edilən kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV-nin həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni, ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar layihəyə daxil edilib. Qanun layihəsində sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənmiş vergilərin onların müraciətindən sonra qaytarılması müddətinin 45 gündən 20 günədək endirilməsini əks etdirən düzəlişlər, eyni zamanda, ƏDV tutulan əməliyyatlar aparan digər şəxslər üzrə yaranmış artıq ödəmələr digər vergi öhdəlikləri ilə üç ay müddətinə əvəzləşdikdən sonra qalan məbləğin 20 gün müddətinə qaytarılmasına dair müddəalar öz əksini tapıb.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə yaradılan icbari tibbi sığorta və səhiyyə, tibb xidmətləri göstərən səhiyyə qurumlarının gəlirlərinin mənfəət vergisindən müddətsiz, buğdanın idxalının və satışının buğda ununun və çörəyin istehsalının və satışının, quş ətinin isə satışının üç il müddətinə ƏDV-dən azad edilməsi ilə bağlı müddəalar layihəyə daxil edilib.

Layihəyə əsasən, banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendin, diskont (istiqrazlarının nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin gəlir vergisindən azad edilməsi müddəti beş ilə qədər, yəni 2021-ci ilin fevralınadək artırılır.

Qanun layihəsinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən hesablaşmaların nağd qaydada aparılması ay ərzində 30 min manatadək, digər vergi ödəyiciləri tərəfindən isə ay ərzində 15 min manatadək məhdudlaşdırılmışdır.

Qüvvədə olan qanunvericiliyə görə kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilir. Vergi ödəyiciləri tərəfindən müvafiq sənədlərin vaxtında təqdim edilməməsi və ya ümumiyyətlə sənədləşmənin aparılmaması bəzən kameral qaydada keçirilən vergi yoxlamalarının müddətinin uzadılması ilə nəticələnir. Belə halların aradan qaldırılması məqsədilə ölkə başçısı tərəfindən kameral vergi yoxlamalarının konkret olaraq verilmiş bəyannamələr əsasında 30 gün ərzində başa çatdırılması tapşırılıb.

Layihəyə kameral vergi yoxlamasının vergi bəyannaməsinin təqdim edildiyi vaxtdan 30 iş günü müddətində həyata keçirilməsini və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsini qadağan edən müddəalar daxil edilib. Bildirilib ki, vergi orqanlarında risklərin avtomatlaşdırılmış qaydada emalı sisteminin tətbiqinə başlanılıb və bu da bəyannamələrin 30 gün müddətində kameral qaydada yoxlanılmasına imkan verəcək. Vergi ödəyicisi tərəfindən bəyannamə təqdim edildiyi tarixdən 30 gün sonra vergi orqanları tərəfindən aşkar olunmuş hər hansı uyğunsuzluq barədə vergi ödəyicisində kameral yoxlama keçirilmədən ona həmin uyğunsuzluq barədə 5 iş günü ərzində bildirişin göndərilməsi də vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edir.

Nazir deyib ki, vergi ödəyicilərində aparılan səyyar vergi yoxlamalarının başa çatmasına baxmayaraq, vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilər. Bu zaman keçirilən vergi yoxlaması ilə büdcədən yayındırılmış vergi məbləğləri dövlət büdcəsinə bərpa edilməklə, həmin yayındırılmış məbləğə 50 faiz miqdarında maliyyə sanksiyası tətbiq edilir. Məcəlləyə təklif edilən könüllü vergi açıqlaması ilə bağlı müddəaların tətbiqi vergi ödəyicilərini belə sanksiyalardan azad edəcək.

Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama ilə aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması hallarının vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliklər təklif edilir ki, bu da vergi ödəyicisinə könüllü vergi açıqlaması barədə səyyar vergi yoxlamasının əhatə etdiyi dövrlərə görə bəyannamə verilməsi hüququnu verir. Həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanmır və maliyyə sanksiyası tətbiq edilmir. Analoji müddəalar ABŞ-ın, əksər Avropa ölkələrinin, qardaş Türkiyənin qanunvericiliyində öz əksini tapıb.

«Nağdsız hesablaşmalar haqqında» qanun layihəsi barədə məlumat verən F.Məmmədov deyib ki, sənədə əsasən ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

**Vergi Məcəlləsinə 115 yeni maddə, 83 dəyişiklik, 3 maddənin ləğvi də daxil olmaqla 201 dəyişiklik nəzərdə tutulur. Bunlardan 123 maddə vergi inzibatçılığının təkmilləşdirilməsi, uçot-qeydiyyatın asanlaşdırılması, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8 maddə vergi yükünün azaldılması, azadolma və güzəştləri əhatə edir**

Qanun layihəsinə əsasən, vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin verilməsi, «Sığorta fəaliyyəti haqqında» və «İcbari sığorta haqqında» qanunlarla müəyyən edilmiş ödənişlər, dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar, əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən işəgötürən tərəfindən ödənilən qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar, stasionar telefon xidmətləri və kommunal xərclərin ödənilməsi, faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla) və digər ayırmaların ödənilməsi və qaytarılması, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi), təhsil haqlarının ödənilməsi, turagentlərə ödəmələr yalnız nağdsız qaydada aparılmalıdır.

Nazir vurğulayıb ki, bu qanunun tələblərinin pozulmasına görə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə aparılan əməliyyatların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilib.

Bildirilib ki, qeyd edilənlərlə yanaşı, banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması məqsədilə Vergi Məcəlləsinin layihəsinə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən bir faiz dərəcəsi ilə sadələşdirilmiş verginin tutulmasına dair müddəa da daxil edilib. Nağd ödənişlərin məhdudlaşdırılması dünyanın əksər ölkələrinin, o cümlədən Fransa, İtaliya, İspaniya, Belçika, Çexiya, Slovakiya, Qazaxıstan və sair dövlətlərin qanunvericiliyində də nəzərdə tutulub. Qanun layihəsində nağd qaydada xərclərin çəkilməsinə məhdudiyyətin qoyulması və pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına bir faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması vətəndaşlara deyil, yalnız vergi ödəyicilərinə münasibətdə tətbiq olunacaq. Bu dəyişikliklər bütövlükdə ölkədə nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına, onların likvidliyinin təmin edilməsinə, pul dövriyyəsinin tənzimlənməsinə, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsinə, əməkhaqlarının və digər ödənişlərin leqallaşmasına və nəticədə ölkənin beynəlxalq reytinqinin daha da artırılmasına şərait yaradacaq.




Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq və digər oxşar fəaliyyətlə məşğul olanlar sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdir. Bu fəaliyyət növləri üzrə fiziki şəxslər sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ ödəyəcəklər. Qeyd etmək lazımdır ki, bu qayda müğənnilərə şamil edilməyəcək.

Bir sıra digər fərdi xidmətlər göstərən şəxslərin də Vergi Məcəlləsi ilə müəyyən ediləcək məbləğlərdə aylıq sabit vergi ödəyəcəkləri nəzərdə tutulur. Bu, vergi inzibatçılığının sadələşdirilməsinə və vergi ödəyicilərinin öz vergi öhdəliklərini bəyannamə təqdim etmədən, çox rahat bir şəkildə yerinə yetirməsinə imkan verəcək.

Vergi Məcəlləsində edilməsi nəzərdə tutulan dəyişikliyə əsasən, mühərrikin həcmi 2000 kubsantimetrədək olan minik avtomobilləri üçün aksizin dərəcəsi 0,20 manat məbləğində dəyişdirilmədən saxlanılıb. Mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda 400 manat və əlavə olaraq mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 3 manat aksiz dərəcəsi müəyyənləşdirilib. Mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda 3400 manat və əlavə olaraq mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 8 manat aksiz dərəcəsi müəyyənləşdirilib. Mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda 11400 manat və əlavə olaraq mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 20 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda 31400 manat və əlavə olaraq mühərrikin həcminin 5000 kubsantimetrdən çox olan hissəsi üçün hər kubsantimetrə görə 40 manat aksiz dərəcəsi müəyyənləşdirilib. İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrin mühərrikinin həcminin hər kubsantimetrinə görə aksizin mövcud dərəcəsi iki dəfə artırılaraq 6 manat məbləğində müəyyənləşdirilib.

«Elektron ticarət haqqında» qanun layihəsi elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatının, təcrübədə geniş tətbiq edilən pul kisəsinin anlayışını, habelə elektron ticarətin iştirakçısı olan satıcıya dair tələbləri müəyyən edən normaları özündə ehtiva edir.

F.Məmmədov qeyd edib ki, Vergi Məcəlləsinə rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizmini müəyyən edən müddəaların əlavə edilməsi nəzərdə tutulur. Layihəyə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə ƏDV-nin alıcısının olduğu yerdə vergiyə cəlb edilməsi ilə bağlı müddəa da daxil edilib. Həmin müddəalara əsasən vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən yerli bank, xarici bankın Azərbaycandakı filialları və ya poçt rabitəsinin milli operatoru tərəfindən qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı, alıcının vəsaiti hesabına tutulmalı və büdcəyə ödənilməlidir. Beləliklə, qeyd edilən dəyişikliklə elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf nəzarətin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına nail olunacaq.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, vergi siyasəti ölkənin iqtisadi siyasətinin bir parçası kimi, onun məqsədlərinə nail olmaqda böyük rol oynayır. Vergi siyasətinə İqtisadiyyat Nazirliyi yalnız fiskal və fiskal məqsədlərə çatmaq nöqteyi-nəzərindən deyil, eyni zamanda, iqtisadi inkişafın davamlılığının təmin edilməsi, onun dəstəklənməsi və iqtisadi siyasətin yürüdülməsinin bir aləti olaraq baxır.

Dövlət Gömrük Komitəsinin Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi Mirqasım Vahabov isə qeyd edib ki, idxal mallarından buğda və buğda ununun, eyni zamanda, daxil olan məmulatların ƏDV-dən üç il müddətinə azad edilməsi bugünkü reallığa tam uyğundur. Bildirib ki, avtonəqliyyat vasitələrinə aksiz vergisinin tətbiq edilməsi də önəmli hallardan biridir. Bu gün Azərbaycan ərazisində 2 milyona yaxın avtonəqliyyat vasitəsi var. Mühərrikinin həcmi daha yüksək olan lüks avtonəqliyyat vasitələrinin aksizlərinin qaldırılması məsələsi vacibdir. Ötən ilin 11 ayında mühərrikinin həcmi 5000 kubsantimetrdən yüksək olan 160 avtonəqliyyat vasitəsi idxal edilib, onun 10-u güzəştli qaydada, yəni, diplomatik xidmətlərə görə gətirilib.

Sonra deputatlar qanun layihələri ətrafında fikir və təkliflərini səsləndiriblər.

Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər Milli Məclisin dekabrın 16-da keçirilən plenar iclasında müzakirə olunaraq qəbul edilib.



# «Vergilər» mövzusunda keçirilən ənənəvi olimpiadaya yekun vuruldu

Ötən həftə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) ölkəmizin 15 ali məktəbinin 300-dək tələbə və magistrantının iştirak etdiyi, Vergilər Nazirliyi və adıçəkilən təhsil ocağının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Vergilər" mövzusunda sayca 10-cu olimpiada keçirilib.



**UNEC-in rektoru Ədalət Muradov** tədbir iştirakçılarını salamlayaraq hər il paytaxtdan və respublikanın digər bölgələrindən çoxlu sayda tələbə və magistrantın bu olimpiadaya qatıldığını vurğulayıb. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş bu olimpiada gənclərin vergilərin mahiyyətini, əhəmiyyətini daha dərindən dərk etmələri üçün çox önəmli yer tutur: «Bugünkü tələbələrimiz sabahın vergi ödəyicisi olduğundan, bu olimpiada gənclərə vergi mədəniyyətinin aşılanması istiqamətində atılmış böyük addım kimi qiymətləndirilməlidir».

**Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov** Vergilər Nazirliyi ilə UNEC-in birgə təşkil etdiyi bu olimpiadanın artıq ənənə halını aldığını bildirib. Ölkə başçısı tərəfindən insan resurslarının inkişafına xüsusi diqqət yetirildiyini vurğulayan nazir müavini qəbul edilən dövlət proqramlarında, milli strategiyalarda və fəaliyyət planlarında dövlət orqanları əməkdaşlarının potensialının inkişaf etdirilməsinin əsas məsələlərdən olduğunu, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında ənənəvi iqtisadiyyatdan «bilik iqtisadiyyatına» keçidin əsaslarından biri kimi insan kapitalının inkişafının ön plana çəkildiyini qeyd edib. Vergilər Nazirliyinin təbliğat və maarifləndirmə sahəsində təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi yer verdiyini vurğulayan S.Ələkbərov olimpiadanın gənclər arasında vergi sahəsində maarifləndirmə işlərinə böyük töhfə verdiyini deyib: «Artıq 10-cu ildir ki, Vergilər Nazirliyi Dövlət İqtisad Universiteti ilə birlikdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Vergilər» mövzusunda olimpiada təşkil edir. Bu işdə əsas ağırlığı öz üzərinə götürən UNEC-in yüksək təşkilatçılığı sayəsində bu illər ərzində müsabiqədən narazılıq halları ilə rastlaşmamışıq. Bu da o deməkdir ki, bu işdə əməyi keçən hər kəs öz işinə çox məsuliyyətlə yanaşır».



Nazir müavini tələbələr arasında olimpiadaya olan marağı da yüksək qiymətləndirib. «Sevindirici haldır ki, illər keçsə də bu bilik yarışmasına nəinki maraq azalmır, əksinə, hər il daha çox tələbələrimiz olimpiadada iştirak etməyə həvəs göstərirlər», - deyən S.Ələkbərov bildirib ki, vergi biliklərinə dərindən yiyələnmiş gənclərin vergi orqanlarında işə cəlb olunmasına da xüsusi önəm verilir və əvvəlki olimpiadalarda fəal iştirak etmiş onlarla gənc hazırda vergi orqanlarında uğurla çalışırlar. Hazırda Vergilər Nazirliyində bütün xidmətlərin elektronlaşdırıldığına diqqəti yönəldən nazir müavininin sözlərinə görə, bu sistemdə işləmək üçün ciddi biliklər tələb olunur və savadlı, müasir dövrün tələblərinə cavab verən vergi işçilərinin sayı artırılmalıdır.

**Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov** UNEC-lə birgə əməkdaşlıq prosesindən və bu cür olimpiadaların əhəmiyyətindən bəhs edib: «Bu bilik yarışı gələcəkdə vergi orqanında işləmək həvəsində olanlar üçün böyük bir şansdır. 2005-ci ildən vergi orqanlarına işə qəbul ölkə başçısının müvafiq fərmanı əsasında aparılır. Bu illər ərzində keçirilmiş 10 müsabiqə və müsahibə nəticəsində 1300 namizəd nazirliyin kadr ehtiyatına daxil edilib. Hal-hazırda həmin gənclərdən 100 nəfərə yaxını orta və yuxarı menecer vəzifəsində çalışır. Onların arasında bu olimpiadanın fəal iştirakçıları da var».

Ötən ildən etibarən Azərbaycan Dövlət İqtisad Universiteti ilə tədris-təcrübə mübadiləsinin aparılması haqqında Memorandumun imzalandığını xatırladan Tədris Mərkəzinin rəisi bu sahədə daha bir neçə dövlət orqanı və təhsil müəssisələri ilə də eyni qaydada anlaşma sazişinin təsdiq olunması istiqamətində səmərəli işlərin aparıldığını qeyd edib.

**UNEC-in «Maliyyə və maliyyə institutları» kafedrasının müdiri Əvəz Ələkbərov** isə olimpiadanın tələbə və magistrantların vergi sahəsində biliklərinin formalaşmasına böyük fayda verdiyini qeyd edib.

Sonra olimpiadaya start verilib. Test üsulu ilə keçirilən yarışmada iştirakçılar 2 saat ərzində Vergilər Nazirliyinin Tədris Mərkəzində müvafiq test bazası əsasında hazırlanmış sualları kompüter vasitəsilə onlayn rejimdə cavablandırıblar. Nəticələr iştirakçı ali məktəblərin təmsilçilərindən ibarət münsiflər heyətinin iştirakı ilə Tədris Mərkəzinin mütəxəssislərinin nəzarəti altında xüsusi kompüter proqramları vasitəsilə qiymətləndirilib. Sonda olimpiadada ən yüksək nəticə göstərmiş tələbə və magistrantların, həmçinin onların müəllimlərinin adları elan edilib.

Qeyd edək ki, bu il ilk dəfə olaraq, eyni bal topladıqlarına görə birinci yerə iki nəfər layiq görülüb. Bakalavrlar üzrə - UNEC-in tələbəsi Mehri Salmanova və Naxçıvan Dövlət Universitetinin tələbəsi Mahir Mehdiyev eyni və ən yüksək nəticə göstəriblər, üçüncü yerə isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Zeynalabdin Cəfərov layiq görülüb. Magistrantlar arasında birinci yerə Mehri Allahverdiyeva, ikinci yerə Vüsal Əhmədov (hər ikisi UNEC), üçüncü yerə isə Qənbər Məmmədli (Naxçıvan Dövlət Universiteti) sahib olublar.

***Qaliblərin təəssüratları***

Magistr pilləsi üzrə təhsil alan tələbələr arasında birinci yerə layiq görülən *Azərbaycan Dövlət İqtisad Universitetinin I kurs tələbəsi Mehri Allahverdiyeva:* «Olimpiadada qalib gəlməyim mənim üçün böyük uğurdur. Bu yarışa qatılan həmkarlarımın hər biri çox savadlı, bilikli uşaqlardır. Onların arasından qalib seçilməyim və bu qalibiyyətin verdiyi sevinci izah etmək çətindir. Etiraf edim ki, imtahan zamanı bir qədər həyəcan keçirsəm də, son nəticədə özümü ələ alıb biliyimi ortaya qoya bildim».

Bakalavr təhsili üzrə birinci yerə layiq görülən *Azərbaycan Dövlət İqtisad Universitetinin IV kurs tələbəsi Mehri Salmanova:* «Vergi tədrisi dərsinə çox böyük maraq göstərirəm, hər zaman da müzakirələrdə, seminarlarda fərqlənmişəm. Bu səbəbdən də olimpiadaya böyük həvəslə qatıldım. Xüsusilə müəllimimin etimadını doğrulda bildiyim üçün çox sevincliyəm».

Bakalavr təhsili üzrə birinci yerə layiq görülən *Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi Mahir Mehdiyev*: «Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan olimpiadada qalib olmaq çox qürurvericidir. Uzaq yol gəlmək, müəllimlərimin etimadını doğrultmaq və əliboş qayıtmamaq - həqiqətən də böyük xoşbəxtlikdir».

***Qalib tələbələrin müəllimləri...***

Qeyd edək ki, olimpiadada qalib olmuş tələbə və magistrantların müəllimləri də xüsusi mükafata layiq görülüblər.

*Naxçıvan Dövlət Universitetinin müəllimi İsmayıl Bağırov*: «Bu cür olimpiadaların keçirilməsi tələbələr üçün böyük sınaq meydanıdır. Çünki bu yarışlara hazırlaşan gənclər gələcəkdə vergi orqanlarında işləməkdə maraqlı olurlar. Bu gün bizim tələbələrimiz də olimpiadaya yüksək əhval-ruhiyyədə gəliblər. Sevindirici haldır ki, bu bilik yarışına qatılan 5 tələbəmizdən 3-ü fərqlənərək, diploma layiq görülüblər».



*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi Zöhrab Paşayev*: «Qalib tələbənin müəllimi seçilmək çox qürurvericidir. Arzu edirəm ki, belə istedadlı, savadlı gənclərimiz çox olsun. Çünki ölkəmizin gələcəyi məhz onların əlindədir. «Vergilər» mövzusunda keçirilən bu olimpiadalar tələbələrin gələcək karyerasında da mühüm rol oynayır».

**A.NƏBİYEVA**

# «Yaşıl dəhliz» layihəsi təqdim edildi

*Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində KİV nümayəndələri üçün şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinə «Yaşıl dəhliz» prinsipi ilə göstəriləcək xidmətlərlə bağlı təqdimat mərasimi keçirilib*



Vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Ələkbər Məmmədov bildirib ki, layihənin tətbiqində məqsəd şəffaflığa, innovativ xidmətlərə və sadə inzibatçılığa nail olmaqdır. Prezident İlham Əliyevin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncam vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsini, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunmasını nəzərdə tutur: «Sərəncamın əsas istiqamətlərindən biri vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılmasıdır. Bunun üçün əsas hədəf vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin daha şəffaf qurulması və üst səviyyəyə çatdırılması, nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığının sadələşdirilməsidir».

Qeyd olunub ki, şəffaf vergi partnyorluğu prinsipi əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə aparılacaq işlərin, onlara göstəriləcək xidmətlərin müəyyən edilməsi üçün vergilər nazirinin əmri ilə təsdiq olunan qaydalar şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinin müəyyən edilməsi meyarlarını, onlara göstəriləcək xidmətləri və digər məsələlər üzrə prosedurları tənzimləyir. Bununla yanaşı, Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində və 1 saylı Vergilər Departamentində «Şəffaf vergi partnyorluğu» idarələri yaradılıb və yanvarın 1-dən bu idarələrdə partnyor vergi ödəyicilərinə xidmət göstəriləcək: «Vergi ödəyiciləri «partnyor vergi ödəyicisi statusuna» malik olmaq üçün bir sıra meyarlara cavab verməlidirlər. Belə ödəyicilər, ilk növbədə, vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalı, saxta sənədlər qəbul və təqdim etməməli, son 3 ildə barəsində cinayət təqibi olmamalıdır».

«Yaşıl dəhliz» prinsipinin üstünlükləri barədə danışan Ə.Məmmədov bildirib ki, xidmət mərkəzlərində «Yaşıl dəhliz» masası, eləcə də nazirliyin Çağrı Mərkəzində ayrıca xətt fəaliyyət göstərəcək, müraciətlərə baxılma müddəti Vergi Məcəlləsinə və «İnzibati icraat haqqında» Qanuna uyğun olaraq müəyyən edilmiş müddətdən üç dəfə tez olacaq. Vergi ödəyicisi vergi orqanlarına müraciət etdikdə həmin müraciət araşdırılacaq və vergi ödəyicisinin fəaliyyəti qaydalarda göstərilən meyarlara uyğun gəldiyi halda, ona «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildiriş göndəriləcək, uyğun gəlmədiyi halda isə onun fəaliyyətinin bu qaydaların göstərilən meyarlara tam və ya qismən uyğun olmaması barədə məlumat veriləcək: «Partnyor ödəyicilərə xidmətlər ərazi məhdudiyyəti nəzərə alınmadan «Yaşıl dəhliz» prinsipi əsasında göstəriləcək. Vergi ödəyicisinin istəyinə uyğun olaraq ünvanlı xidmət onun iş yerində də həyata keçirilə bilər. Belə ödəyicilərə ənənəvi və innovativ üsullarla xidmətlər göstəriləcək. Ənənəvi xidmətlərə şifahi xidmətlər, elektron xidmətlər, sənəd qəbulu, hazır sənədlərin verilməsi, elektron sənəd mübadiləsi xidmətləri, SMS vasitəsilə məlumatlandırma və ünvanlı xidmətlərin göstərilməsi daxildir. Ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərin də təqdim edilməsi nəzərdə tutulur. Belə xidmətlərə videobağlantılar, Çağrı və xidmət mərkəzlərində növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün «dəyirmi masa», seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir».

Bildirilib ki, koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyəti vergi strukturundan ayrılmış kuratorlar vasitəsilə ünvanlı xidmətlər göstəriləcək: «Bununla yanaşı, kurator partnyor ödəyicilərin vergi qanunvericiliyində baş vermiş dəyişikliklərlə bağlı və vergi qanunvericiliyinə riayət etmələri istiqamətində məlumatlandırma-izahat tədbirləri, o cümlədən qabaqlayıcı tədbirlər həyata keçirəcək, yazılı müraciətlərin cavablandırılmasını təmin edəcək, vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin partnyor ödəyicilərin iştirakı ilə müzakirə edilməsini və zərurət yarandıqda Vergilər Nazirliyinin müvafiq struktur vahidinin nümayəndələrinin iştirakı ilə birgə görüşlərin təşkil edilməsi ilə bağlı struktur bölmənin rəhbərliyi qarşısında məsələlər qaldıracaq, xidmətlərin göstərilməsi prosesində hər hansı uyğunsuzluq və ya anlaşılmazlıq yaranarsa, bu məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görəcək».

Hal-hazırda Bakı şəhərində belə tələblərə cavab verən ödəyicilərin sayının 400-dən çox olduğunu bildirən vergilər nazirinin müşaviri hazırda yerli vergi orqanlarında analoji qurumların yaradılması ilə bağlı təkliflər hazırlandığını və yaxın vaxtlarda müzakirəyə çıxarılacağını diqqətə çatdırıb. Qeyd olunub ki, vergi qanunvericiliyinə riayət edilməklə könüllü əməletmənin təmin olunması və vergi ödəyicilərinin partnyor ödəyici kimi fəaliyyət göstərmələrinin stimullaşdırılması, həmçinin vergi ödəyicilərinin, ümumilikdə əhalinin məlumatlandırılması, maarifləndirilməsi və təbliğat işlərinin aparılması məqsədilə partnyor ödəyicilərin razılığı əsasında onların siyahısı mütəmadi olaraq Vergilər Nazirliyinin rəsmi internet saytı, sosial şəbəkələrdəki səhifələri və digər kütləvi informasiya vasitələri ilə yayımlanacaq.

«Yaşıl dəhliz» layihəsinin uğurlu tətbiqi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, könüllü vergi əməletməsinin artmasına və cəmiyyətdə vergi mədəniyyətinin daha da yüksəlməsinə səbəb olacaqdır.

**AYTƏN**

# Türkiyə nümayəndələri Vergilər Nazirliyində olublar

Vergilər Nazirliyində Türkiyə Respublikası Maliyyə Nazirliyinin Gəlir İdarəsi Başkanlığının nümayəndə heyəti ilə görüş keçirilib. Vergilər nazirinin müavini Sahib Ələkbərov qonaqları salamlayaraq, onlara ölkədə həyata keçirilən vergi siyasəti barədə məlumat verib. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin göstərişlərinə uyğun olaraq, vergi orqanları tərəfindən sahibkarlığın inkişafının dəstəklənməsi, daha əlverişli biznes mühitinin formalaşdırılması, investisiya qoyuluşlarının stimullaşdırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulması məqsədilə bir sıra mühüm addımlar atılıb, o cümlədən vergi qanunvericiliyi və inzibatçılığında ciddi dəyişikliklər edilib.



Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət sahəsində apardığı işlərə toxunan nazir müavini bildirib ki, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə iri şəhər və rayonlarda vergi ödəyiciləri üçün 57 xidmət mərkəzi yaradılıb, vergi ödəyicilərinə 63 elektron xidmət göstərilir.

Nazir müavini Vergilər Nazirliyi yanında Çağrı Mərkəzinin fəaliyyəti barədə məlumat verərək, mərkəzin yaradılması zamanı Türkiyə təcrübəsindən istifadə edildiyini vurğulayıb. O, ölkələr arasında tarixi bağlılıq, sıx əməkdaşlıq və dostluq münasibətlərinə toxunaraq, ikitərəfli əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirib. Qeyd edilib ki, artıq Azərbaycanda vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin artırılması məqsədilə intizamlı vergi ödəyicilərinə xidmətin «Yaşıl dəhliz» prinsipi əsasında həyata keçirilməsinə başlanılıb. Bu məqsədlə şəffaf vergi partnyorluğu idarələri yaradılıb və fəaliyyəti şəffaf olan digər vergi ödəyicilərinə də münasibətdə «Yaşıl dəhliz» prinsipi əsasında xidmətlərin göstərilməsi təmin ediləcək.

Türkiyə Respublikası Maliyyə Nazirliyinin Gəlir Administrasiyasının rəhbərinin müavini Mahmut Sütçü səmimi qəbula görə təşəkkür edərək təmsil etdiyi qurumun fəaliyyəti, vergi siyasətinin əsasları, vergi ödəyiciləri ilə işin təşkili, Türkiyə hökumətinin bu sahədə həyata keçirdiyi islahatlar barədə məlumat verib.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin və Türkiyə Respublikası Maliyyə Nazirliyinin Gəlir Administrasiyasının Vergi ödəyicilərinə xidmət idarəsinin nümayəndələri vergi ödəyicilərinə xidmət sahəsində keçirdikləri tədbirlər barədə, Türkiyə nümayəndə heyətinin rəhbəri Mahmut Sütçü isə «Bəzi vergi borclarının yenidən strukturlaşdırılması» mövzusunda təqdimatla çıxış ediblər. Təqdimat zamanı borclu vergi ödəyiciləri ilə iş prinsipi, bu sahədə mövcud qanunvericilik və vergi borclarının yenidən strukturlaşdırılması işləri barədə məlumat verilib.

Görüşdən sonra qonaqlar Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Xidmət və uçot idarəsinin, habelə Tədris Mərkəzinin və Vergilər Nazirliyi yanında Çağrı Mərkəzi Departamentinin fəaliyyəti ilə tanış olublar.

Qonaqların səfər proqramına Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN xidmət» Mərkəzinin fəaliyyəti ilə tanışlıq da daxildir.

# Azərbaycanda vergi risklərinin təhlili sistemi Avropa standartlarına uyğundur



«İnsan resurslarının inkişafı üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsinin Azərbaycan tərəfindən layihə rəhbəri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Asəf Əsədovun «Vergilər» qəzetinə müsahibəsi

***- Asəf müəllim, layihə çərçivəsində Fransa və İspaniyada səfərlərdə olmusunuz. Həmin ölkələrin vergi sistemində maraq doğuran hansı əsas xüsusiyyətləri qeyd etmək olar?***

- Hər iki ölkədə vergi risklərinin təhlili sahəsində tətbiq olunan müasir innovativ vasitələr, avtomatlaşdırılmış informasiya texnologiyaları sistemi Azərbaycanın vergi orqanı əməkdaşları üçün ətraflı bilgi əldə edilməsi baxımından faydalı ola bilər. Fransada vergi riskləri üzrə ixtisaslaşmış vergi mütəxəssisləri, o cümlədən Vergi Administrasiyasının məlumatların təhlili və üsulların tətbiqi üzrə xüsusi müşaviri Filip Şellə görüşlərdə vergi risklərinin təhlili və məlumat mənbələrinin onlayn rejimdə iş fəaliyyətini öyrənmək imkanımız oldu. Bu ölkənin vergi administrasiyasında informasiya texnologiyaları üzrə iki böyük proqram təminatı qurulub: «Sirus Pro» proqramının əsas xüsusiyyəti korporotiv şirkətlərin risklərini təhlil etməkdir, «Sirus Par» sisteminin köməyi ilə isə fiziki şəxslərin fəaliyyətindəki risklərin təhlili aparılır. Ümumiyyətlə, risklərin analizinin müxtəlif mənbələrdən daxil olan məlumatların qarşılıqlı şəkildə yoxlanılması və fiziki şəxslərin təqdim etdiyi bəyannamələrlə üzləşdirilib müqayisə edilməsi Fransanın vergi sistemi üçün xarakterik cəhətdir. Bu ölkədə bəyannamələr fiziki şəxslər tərəfindən deyil, ailə tərəfindən elektron formada təqdim edilir. Bəyannamələrdə ödəyicinin gəlir, əmlak, dividend və digər vergilərə dair məlumatları administrasiyanın üçüncü şəxslərdən əldə etdiyi məlumatlarla müqayisə olunur, bu yolla vergidən yayınma halının olub-olmaması müəyyən edilir.

Fransanın vergi sistemində yoxlamalarla bağlı institusional üsulların tətbiqi də maraq doğuran məsələlərdəndir. Bu sahədə risk analizi ilə məşğul olan strukturlar milli, regional və yerli (rayon) səviyyəyə bölünüb. Milli səviyyədə ən iri şirkətlər - ümumi dövriyyəsi 400 milyon avrodan yuxarı olan 38 min müəssisə yoxlanılır. Onların təqdim etdikləri məlumatlar 300 nəfərin çalışdığı xüsusi departamentdə (DNEF) toplanılır və bunun əsasında audit aparılır. Təhlillər göstərir ki, departamentin il ərzində şirkətlərin yoxlanılması nəticəsində əlavə hesabladığı vergilərin həcmi 158 milyon avro təşkil edib.

Rayon səviyyəsində isə gəlirləri daha az olan şirkətlər yoxlanılır. Yerli səviyyədə fəaliyyət göstərən qurumun əsas işi bəyannamələri və məlumatları yoxlamaqdır. Bu qurumun nəzdində fəaliyyət göstərən 529 şöbə il ərzində təxminən 400 min müəssisəni yoxlayır. Departamentdə 2015-ci ildə 17 milyon ailənin təqdim etdiyi 37 milyon bəyannamə yoxlanılıb, nəticədə fiziki şəxslərin gəlir vergisi üzrə əlavə hesablanmış vergilərin məbləği 76 milyon avro təşkil edib, gəlirləri 1,3 milyon avrodan artıq olan 340 min şəxsdən isə əlavə 5 milyon avro vergi alınıb. Administrasiyada fiziki şəxslərin təqdim etdikləri bəyannamələri yoxlamaqla məşğul olan 535 ayrıca qurum fəaliyyət göstərir.

Fransanın vergi administrasiyasında 300 nəfər işçisi olan ayrıca bir departament (DNVSF) yalnız varlı fiziki şəxslərin (illik gəlirləri 2 milyon avrodan çox olan) bəyannamələrinin təhlili və auditi ilə məşğul olur. 512 işçisi olan başqa bir departament (DNVİ) isə yalnız auditlə məşğuldur və fırıldaqçılıq hallarını müəyyən edir. Bu ölkənin vergi sistemində audit departamenti vergi cinayətlərinin ibtidai araşdırılması ilə də məşğuldur.

> Ölkəmizin vergi sitemində risklərin təhlili baxımından qarşılıqlı əlaqələri olan şirkətlərin məlumatlarını əks etdirən vizuallaşdırılmış modulun yaradılması da məqsədəuyğundur

***- Fransada hansı vergi növləri mövcuddur və burada bəyannamə sistemi necə qurulub?***

- Fransada vergilərlə bağlı 3 sistem: standart, sadələşdirilmiş və mikromüəssisələr üçün xüsusi vergi sistemi mövcuddur. Bu ölkədə vergi dərəcələri eynidir. Vergi növləri isə Azərbaycanda olduğu kimidir, lakin ƏDV ilə bağlı diferensial vergi tətbiq edilir, müxtəlif qida malları üzrə aşağı ƏDV tutulur. Gəlir vergisi isə daha çox proqressiv səciyyəlidir, bu vergi növü gəlir mənbəyindən asılı olaraq çoxşaxəlidir və fərqli dərəcə ilə tətbiq olunur.

Bəyannamə sisteminə gəlincə, böyük və kiçik müəssisələrin bəyannamə təqdim etməsində fərqlilik var. Bu, dövriyyədən asılı olaraq fərqlənir. Ayda 40 min avrodan çox ƏDV ödəyən şirkətlər hər ay, həmin məbləğdən az dövriyyəsi olan müəssisələr isə rüblük bəyannamə təqdim edir. Dövriyyəsi ayda 15 min avrodan az olan ƏDV ödəyiciləri ildə bir dəfə bəyannamə təqdim edirlər. Ölkədə standart rejimi ilə müqaisədə sadələşmiş vergi rejimlərinin mühasibat sistemləri daha sadədir. İri şirkətlərin hazırladığı bəyannamələr 18-28, sadələşdirilmiş vergi ödəyiciləri üçün 2-3 səhifədir. Sadələşdirilmiş vergi rejimində xüsusi maraq doğuran bir məqam isə illik gəlirləri 82 min avrodan yüksək, 783 min avrodan aşağı olan şirkətlərə tətbiq edilən yanaşma ilə bağlıdır. Həmin şirkətlər əsasən ticarət sektorunu əhatə edir. Xidmət sektorunda isə bu interval 32-236 min avrodur. Həmin şirkətlərin hamısı sadələşdirilmiş vergi ödəyiciləridir. Ticarət sektorunda illik dövriyyəsi 82 min, xidmət sektorunda isə 33 mindən aşağı olan şirkətlər mikromüəssisələr hesab olunur. Onlar ƏDV, mənfəət və digər vergilər üzrə bəyannamə təqdim etmirlər. Ticarət sektorunda müəssisənin xərcləri gəlirlərinin 75%-ni, xidmət sektorunda isə 50%-ni təşkil edir. Xərclər gəlirdən çıxıldıqdan sonra şirkətin mənfəəti sadələşdirilmiş vergiyə cəlb olunur. Ailə müəssisələrinin vergi ödəmələri isə daha aşağı məbləğ təşkil edir. Məsələn, bir işçisi olan mikromüəssisənin illik gəliri 26 min avrodan azdırsa, o, ümumi dövriyyədən cəmi 1% vergi ödəyir. İşçilərinin sayı 2, illik gəlirləri 82 min avrodan az olan mikromüəssisə isə 1,7% - lə vergiyə cəlb olunur. 3 işçisi və illik gəlirləri 80 min avrodan az olan müəssisə 2% vergi ödəyir.

***- Bəs İspanyanın vergi sisteminin özünəməxsusluğu nədən ibarətdir?***

- İspaniya Vergilər Agentliyinin İnsan resurslarının idarə edilməsi üzrə fəaliyyət istiqamətləri, vergi risklərinin təhlilində əldə olunmuş zəngin təcrübə və digər amillərə əsaslanaraq deyə bilərəm ki, bu ölkə təhlil və vergi fırıldaqçılığının araşdırılmasında çox yaxşı sistem qurub. İspaniya 15 il əvvəl Avropada ilk dəfə ƏDV üzrə elektron hesab-faktura sistemini tətbiq edib və Azərbaycan da bu təcrübədən yararlanıb. Bilik menecmentinə əsaslanan «Zuxar» adlı avtomatlaşdırılmış informasiya sistemi risklərin təhlilində və auditin aparılmasına geniş imkanlar yaradır. «Zuxar» proqramından İspaniya Vergilər Agentliyi vergidən yayınma hallarının müəyyənləşdirilməsində də istifadə edir. Sistem müxtəlif mənbələrdən informasiya toplayır. Vergi ödəyicisinin qalıq və dividentləri barədə bank, müxtəlif şirkətlərdən daxil olan məlumatlar bu sistemdə avtomatik əldə olunur. İspaniyada 15 yaşı tamam olan hər bir şəxsin fiskal kodu olur və burada bütün zəruri maliyyə məlumatları toplanır. Bu ölkənin qanunvericiliyinə əsasən, ticarət mərkəzlərində 3 min avrodan artıq alış-veriş edən şəxs barəsində məlumatlar fiskal kodda eyniləşdirilir və «Zuxar» sistemində qeydə alınır.

İspaniya böyük turizm ölkəsi olduğundan hər bir vətəndaşın illik istifadə etdiyi kommunal xərclər barədə məlumatlar da vergi orqanına təqdim edilir. Bu yolla vətəndaşın əmlakını icarəyə verib-verməməsi müəyyən olunur. Əgər kimsə evini icarəyə verib gizlədirsə, kommunal xərclərin illik istehlakını müqayisə etməklə bunu aydınlaşdırmaq mümkündür. Ümumiyyətlə, İspaniyada vergi risklərinin təhlili zamanı mənbələrin müxtəlifliyinə, dürüstlüyünə və dəqiqliyinə böyük diqqət yetirilir. Məlumatlar əldə olunduqdan sonra onların təhlil üsulları da xüsusi institusional mexanizm üzrə aparılır.

İspaniyanın vergi sistemində 2000-dən çox işçisi olan İnformasiya texnologiyaları departamentinin də mühüm rolu var. Sistemdə il ərzində 50 milyona yaxın bəyannamə toplanır. Departament 30 saniyə -1 dəqiqə ərzində istənilən məlumatı təqdim etmək imkanına malikdir. Azərbaycanın vergi orqanı əməkdaşları tvinninq layihəsi çərçivəsində həmin departamentin iş təcrübəsini dərindən mənimsəyib.

***- Ölkəmizin vergi sistemində risklərin təhlili sahəsində vəziyyəti necə qiymətləndirmək olar?***

- Azərbaycanda vergi risklərinin təhlili sistemi yaxşı qurulub və heç də Avropa ölkələrindən geridə qalmır. Hətta Azərbaycanın vergi sistemində bəzi üstün məqamlar (xüsusilə də kiçik və orta müəssisələrin vergi boşluğunun hesablanması) Fransa və İspaniyada yoxdur. Sadəcə, onların məlumat mənbələri bizdəkindən çoxdur. Məlumat mənbələrinin çeşidinin artırılması istiqamətində iş aparmalıyıq. Çünki risklərin təhlili birbaşa məlumat bazasının güclü olmasından çox asılıdır.

Bundan başqa, ölkəmizin vergi sitemində risklərin təhlili baxımından qarşılıqlı əlaqələri olan şirkətlərin məlumatlarını əks etdirən vizuallaşdırılmış modulun yaradılması da məqsədəuyğundur.

> İşçi heyətinin peşəkarlıq səviyyəsinin daim artırılmasını təmin etmək üçün Azərbaycanda Avropa İttifaqının ən müasir təcrübəsinə uyğun və müasir informasiya texnologiyalarına əsaslanan dayanıqlı təhsil və çoxpilləli treninq sistemi tətbiq edilməkdədir

***- Bu ölkələrlə Azərbaycanın vergi sistemində əsas fərqlər nədən ibarətdir?***

- Fransa və İspaniyada ümumi bəyannamə sistemi mövcuddur ki, bu da vergi administrasiyası üçün çox vacib faktordur. Ümumi bəyannaməyə keçmək üçün məlumatların üçüncü şəxsdən əldə olunması əsas şərtdir. Həmin mənbələr bank, elektrik, yanacaq, qaz, kommunal xidmət müəssisələri, əmlak, sığorta və digər təşkilatlardır. Onların hər birinin təqdim etdiyi məlumatların AVİS-ə inteqrasiyasını qurmaq lazımdır. Digər tərəfdən, bu qurumların məlumatları əldə edilməzdən əvvəl yoxlanılmalı, dəqiqliyi müəyyənləşdirilməli, bir formatda AVİS-ə daxil edilməli, yalnız bundan sonra təhlil olunmalıdır. Bu prosesə keçmək üçün Vergilər Nazirliyinin bütün strukturları, departament və ərazi vergi idarələri birgə işləməlidir.

***- Asəf müəllim, artıq Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi başa çatdı. Qarşıdakı dövrdə Fransa və İspaniyanın vergi administrasiyaları ilə əməkdaşlıq hansı sahələrdə davam etdirilə bilər?***

- 2014-cü ilin sentyabr ayından tətbiqinə başlanan və 27 ay davam edən layihə çərçivəsində mühüm işlər görüldü. İspaniya və Fransanın vergi administrasiyaları ilə birgə həyata keçirilən layihəyə əsasən, Azərbaycanın vergi sistemində insan resurslarının uzunmüddətli inkişaf strategiyası hazırlandı. İnsan resurslarının inkişafı və səmərəli idarəetmədə tənzimləyici rol oynayan ən müasir normativ qaydalar və metodoloji toplu ərsəyə gəldi. İnsan resurslarının inkişafı ilə bağlı tədbirlər planına uyğun olaraq, işçi heyətinin peşəkarlıq səviyyəsinin daim artırılmasını təmin etmək üçün Azərbaycanda Avropa İttifaqının ən müasir təcrübəsinə uyğun və müasir informasiya texnologiyalarına əsaslanan dayanıqlı təhsil və çoxpilləli treninq sistemi tətbiq edilməkdədir. Layihənin son 3 ayı ərzində elektron ticarətin vergiyə cəlb edilməsi, risklərin təhlili üsulları, çirkli pulların yuyulması, məlumat bazaları, transfer pricing və s. bu kimi mürəkkəb funksional sahələr üzrə İspaniya və Fransa vergi administrasiyalarının mütərəqqi təcrübəsi dərindən öyrənildi. Ümumiyyətlə, layihənin icrası müddətində nazirliyin 150 əməkdaşı iştirakçısı olduğu 35 işçi seminar və görüşdə 30 mövzu üzrə ən son təcrübə ilə yaxından tanış olub.

***- Avropa İttifaqı əməkdaşlığın davamı olaraq Azərbaycanın vergi sistemində hansı yeni layihəni həyata keçirməyi nəzərdə tutur?***

- Gələn ildən ölkəmizdə «Transfer pricing» (transfer qiymətləndirmə) tvinninq layihəsinin icrasına başlamaq planlaşdırılır. İndiyədək bu sahə üzrə elmi seminarlar təşkil olunub, xarici ölkələrin mütəxəssislərinin iştirakı ilə beynəlxalq təcrübədə tətbiq olunan mexanizmlər öyrənilib. Ən qabaqcıl hesab edilən bu təcrübənin Azərbaycanda tətbiqi istiqamətində işlər aparılır. Transfer qiymətqoyma üzrə qanunvercilik və inzibatçılıq prosedurlarının yaradılması üçün Avropa İttifaqının tvinninq yardım aləti çərçivəsində müvafiq layihənin həyata keçirilməsi barədə razılıq əldə olunub. Avropa İttifaqı dördüncü tvinninq layihəsinin həyata keçirilməsini maliyyələşdirməyə razılıq verib. Layihə çərçivəsində Fransa və İspaniyanın vergi administrasiyaları ilə əməkdaşlığı da nəzərdə tutulur. Hər iki ölkənin bu sahədə yaxşı təcrübəsi olduğu üçün onlardan transfer qiymətqoymanın tətbiqi mexanizmlərini öyrənməyə olar. Əminliklə deməkolar ki, sözügedən layihənin icrası şəffaflığın və vergi daxilolmalarının həcminin artmasını təmin edəcək.

**Müsahibəni hazırladı:**
**Elbrus CƏFƏRLİ**

# Bu ilin yanvar-noyabr ayları üzrə büdcə tapşırığı tam icra olunub

**2016-cı ilin yanvar-noyabr ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 6 milyard 295 milyon 813,0 min manat vəsait ödənilib və Vergilər Nazirliyi üzrə 11 aya müəyyənləşdirilmiş tapşırıq tam yerinə yetirilib. Cari ilin 11 ayında respublika üzrə 127.180 yeni vergi ödəyicisi qeydiyyata alınıb.**

# Qanun qarşısında hamı məsuliyyət daşıyır

*2 saylı Ərazi Vergilər Departamentində qeydiyyatda olan vergi ödəyicisi, fiziki şəxs Güllü Nazir qızı Ağayeva Vergilər Nazirliyinin Apelyasiya Şurasına şikayət ərizəsi ilə müraciət edərək, vergi orqanı tərəfindən onun təsərrüfat subyektində aparılmış operativ nəzarət tədbirlərinin yekununa dair qərardan narazılığını bildirmişdi. Şikayətçi qərarın ləğv olunması və onun barəsində maliyyə sanksiyasının götürülməsini xahiş etmişdi.*

Vergi ödəyicisinin şikayəti araşdırılaraq müəyyən edilib ki, G.Ağayeva Sumqayıt şəhərindəki Heydər Əliyev parkında yerləşən 947 kvadratmetr qeyri-yaşayış sahəsini ötən ilin dekabr ayından icarə müqaviləsinə əsasən 10 il müddətinə ayda 1000 manat ödəməklə icarəyə götürüb. Obyektin əsas fəaliyyəti restoranlara xidmət göstərilməsi və yeməklərin müxtəlif ünvanlara çatdırılması olub.

Vergi orqanı əməkdaşlarının 2016-cı il aprelin 26-da obyektdə ilk dəfə həyata keçirdikləri operativ vergi nəzarəti tədbiri zamanı burada 16 nəfər işçidən 9-nun əmək müqaviləsi olmadan işə cəlb edildiyi müəyyənləşib və nəticədə «Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı iş və xidmətlərin yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar olunması ilə bağlı operativ vergi nəzarətinin nəticəsi haqqında akt tərtib olunub. Bundan əlavə, vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmasına dair qərar qəbul edilib.

Sahibkarın müraciətlərini nəzərə alan nazirlik 17 iyun 2016-cı il tarixli «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsindən imtina olunması haqqında qərar çıxarıb. Lakin növbəti dəfə həyata keçirilən (01 iyul 2016-cı ildən 30 iyul 2016-cı ilədək) operativ vergi nəzarəti tədbirləri zamanı həmin təsərrüfat subyektində yenidən Əmək Məcəlləsinin 49-cu maddəsinin tələblərinin pozulması halları aşkar edilib və 16 nəfər işçidən 10 nəfərinin əmək müqaviləsi olmadan işə cəlb edilməsi faktı üzrə akt tərtib olunub. Nəzarət tədbiri zamanı G.Ağayeva və əmək müqaviləsi bağlamamış 10 nəfər şəxs izahat verməkdən imtina edib və bu hal yoxlayıcılar və şahidlər tərəfindən aktlaşdırılıb. Akt vergi ödəyicisi tərəfindən imzalanmayıb və bir nüsxəsi qəbul edilməyib. Nəticədə faktla bağlı vergi ödəyicisinə qarşı 10 min manat məbləğində maliyyə sanksiyasının tətbiqi barədə qərar qəbul edilib.

Sahibkar Güllü Ağayeva həmin qərardan vergi orqanına şikayət edib. Şikayət üzrə inzibati araşdırma aparılıb və «İnzibati şikayətin qismən təmin edilməsi haqqında 17 noyabr 2016-cı il tarixli qərar qəbul olunub. Qərara əsasən, G.Ağayeva barəsində müəyyənləşdirilmiş maliyyə sanksiyasının məbləği 10 min manatdan 5 min manatadək azaldılıb. Şikayətdə qaldırılan digər məsələ - əmlakın siyahıya alınmasına dair qərar və protokol da ləğv edilib. Fərdi sahibkar bu qərarla da razılaşmayaraq, 22 noyabr 2016-cı ildə Vergilər Nazirliyinin Apelyasiya Şurasına şikayət edib.

Apelyasiya Şurasının dekabrın 13-də keçirilən iclasında vergi ödəyicisinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə aparılan müzakirə zamanı qeyd olunan təsərrüfat subyektində aparılmış operativ vergi nəzarəti tədbirinin qanunvericiliyə uyğun keçirildiyi, vergi orqanı əməkdaşları tərəfindən qanunsuzluqlara yol verilmədiyi əsas götürülərək, G.Ağayevanın şikayətinin təmin edilməməsi barədə qərar qəbul olunub. Apelyasiya Şurası, həmçinin, Vergilər Nazirliyinin «İnzibati şikayətin qismən təmin edilməsi haqqında» qərarının qüvvədə saxlanılması barədə də qərar çıxarıb.

**ELBRUS**

# Vergi daxilolmaları və sosial sığorta yığımları artır

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin tətbiqi, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, əmək bazarına nəzarətin gücləndirilməsi özəl sektora aid müəssisələrdən (ticarət və ictimai iaşə, topdansatış, tikinti sektorları) həm vergi, həm də sosial sığorta yığımlarının həcminin artmasına şərait yaradıb.

> «Şəffaf vergi partnyorluğu» idarələri həmin ödəyicilər üçün doğma ünvan olmaqla onlara ən yüksək səviyyədə xidmət göstərəcək

Vergilər Nazirliyi kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət (əmək müqavilələrinin bağlanması, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması) istisna olmaqla, əksər operativ nəzarət tədbirlərini dayandırıb. Ticarət, iaşə, xidmət və tikinti sahəsində çalışan sahibkarlara sadələşdirilmiş vergi rejimində işləmək üçün seçim hüququ verilib. Bu tədbirlər qeyd olunan sahələrdə fəallığın artmasına, yeni sahibkarlıq subyektlərinin yaranmasına mühüm təsir göstərib, özəl sektordan vergi və sosial sığorta daxilolmalarının həcminin artmasına səbəb olub. Hazırda vergi daxilolmalarının 65%-ə yaxını, məcburi dövlət sosial sığorta haqlarının isə 60%-dən çoxu qeyri-büdcə sektorunun payına düşür. Komitə sədri qeyd edib ki, gələn il həm vergilərin, həm də sosial sığorta yığımlarının artımı nəzərdə tutulur. Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 510 milyon manat daxilolma proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 500 milyon manat və ya 7,1 faiz çox deməkdir. 2017-ci ildə məcburi dövlət sosial sığorta haqlarının həcmi 2 milyard 125 milyon manat nəzərdə tutulub ki, bu da Fondun gəlirlərinin 62,5%-i qədəri deməkdir. Yəni 2016-cı ilin müvafiq proqnoz göstəricisindən 70 milyon manat və ya 3,4%, gözlənilən icra göstəricisindən isə 245 milyon manat və ya 13,0% çox vəsait nəzərdə tutulub. 2017-ci ildə qeyri-büdcə sektoru üzrə 1 milyard 300 milyon manat və ya Fondun ümumi gəlirlərinin 38,2%-i qədər vəsait proqnozlaşdırılır. Bu, 2016-cı ilin müvafiq proqnoz göstəricisindən 5 milyon 260 min manat və ya 0,4% çoxdur. Qeyri-büdcə sektoru üzrə yığılan sosial vergilərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin çəkisinin artımı proqnozlaşdırılır. Gələn il bu illə müqayisədə sahibkarlardan topalanan sosial tipli vergilərin 11 milyon manat artaraq 54,4 milyon manat olacağı gözlənilir. Bu, 2016-cı ilin proqnoz və gözlənilən icra göstəricisindən 910,2 min manat və ya 1,7% çoxdur.

**Vergi ödəyicilərinin sayında artım var**

İqtisadiyyat Nazirliyinin məlumatına görə, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası və digər məqsədli proqramların həyata keçirilməsi sayəsində (2014-cü ilin yanvarından 2016-cı ilin noyabr ayına qədər olan dövr) ölkəmizdə 300 minə yaxını daimi olmaqla, ümumilikdə 350 min yeni iş yerləri yaradılıb. Bu proses 2016-cı ilin ötən 3 rübü ərzində də davam edib və 121 min daimi iş yeri yaradılıb. Ləğv olunmuş və fəaliyyətini müvəqqəti dayandırmış vergi ödəyicilərinin sayını yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin sayı ilə müqayisə etdikdə müsbət dinamika müşahidə olunur. Yeni yaradılmış iş yerlərinin 63,7%-i qeyri-dövlət sektorunda açılıb.

Sahibkarların sayının artmasında əlverişli biznes mühiti ilə bərabər, səmərəli vergi rejimi də mühüm rol oynayır. Yeni yaradılan iş yerlərinin əsas hissəsinin (64,1%) fərdi sahibkarlıq subyektlərinin payına düşməsi kiçik və orta biznes sektorunda aparılan islahatların ümumi nəticəsi hesab oluna bilər. 2016-cı il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı olub və bu tədbirlər sahibkarlıq subyektlərinin sayının artmasına da öz müsbət təsirini göstərib.

**Vergi və sosial sığorta haqlarının ödənilməsində könüllülüyün səviyyəsi artır**

Vergi daxilolmalarının və sosial sığorta ödənişlərinin həcminin artmasında müəssisələrin istehsal və xidmət fəaliyyətinin genişlənməsi ilə yanaşı, yeni sahibkarlıq subyektlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, vergi sistemində və sosial müdafiə sahəsində qeyri-dövlət sektorunun xüsusi çəkisinin artmasını görmək olar. Son illər dövlət büdcəsinə ödənilən vergilərin çəkisində qeyri-dövlət sektorunun xüsusi çəkisi daha da artıb. Bununla yanaşı, məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların strukturunda da özəl sektorun payı əhəmiyyətli dərəcədə yüksəlməyə başlayıb. Bu ilin yanvar-noyabr ayları ərzində həm vergi, həm də məcburi sosial ödənişlərin qeyri-neft bölmələri üzrə artım qeydə alınıb.

Nəzərə alsaq ki, sosial sığorta haqları da bir ödəmə növüdür, onda bu sistemdə baş verən müsbət dəyişiklikləri ümumilikdə respublikamızda həyata keçirilən islahatların, ödəyicilərin maarifləndirilməsi istiqamətində davamlı tədbirlərin, şəffaflığın, elektron xidmətlərin məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Artıq fiziki və hüquqi şəxslər tərəfindən həm vergilərin, həm də sosial sığorta haqlarının ödənilməsində intizamlılıq, könüllülük prinsipi daha çox müşahidə olunur.

**İnkişafın əsas hədəfləri**

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin inkişafına stimul vermək, sosial proqramların icrasının keyfiyyətini yaxşılaşdırmaq qarşıdakı dövr üçün əsas hədəflərdəndir. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə ölkə iqtisadiyyatının qeyri-neft sahələri üzrə yığımların optimallaşdırılması, vergi və sosial sığorta yığımlarının həcminin əhəmiyyətli dərəcədə artımı, dövlət büdcəsindən transfertlərin həcminin tədricən azaldılması öz əksini tapıb. Xüsusilə də yaxın onillikdə sosial yığımların əsasən dövlət və özəl sahələr hesabına təmin olunması, büdcədən transfertlərin minimuma endirilməsi nəzərdə tutulur.

Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə ödənilən vergilərin böyük hissəsi məhz vətəndaşların sosial rifahının daha da yaxşılaşmasına, pensiya və müavinətlərin vaxtlı-vaxtında ödənilməsinə, müxtəlif sosialyönümlü layihələrin maliyyələşdirilməsinə yönəldilir.

**E.CƏFƏRLİ**

# Vergilər Nazirliyində struktur dəyişiklikləri aparılıb

Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlilinə əsaslanan, ölkənin perspektiv inkişaf hədəflərini müəyyənləşdirən «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» təsdiq edilib.

Aparılan çoxşaxəli iqtisadi islahatlar bütövlükdə səmərəli vergi siyasəti, təkmil vergi qanunvericiliyi və əlverişli vergi mühitinin formalaşdırılmasını zəruri edir. İndiyədək geniş əhatəli konsepsiyalar, strategiya və proqramlar qəbuil edilib, beynəlxalq əməkdaşlıq çərçivəsində qabaqcıl təcrübələr öyrənilərək milli vergi sistemində tətbiq olunub, institusional potensialın gücləndirilməsi, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində mühüm addımlar atılıb.

Ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi və vergi sahəsində həyata keçirilən islahatların davamı kimi, Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı ilə Vergilər Nazirliyinə verilmiş tapşırıqların icrası, vergi orqanlarında kadr potensialından səmərəli istifadə edilməsi, eləcə də daha təkmil və müasir idarəetmə menecmentinin formalaşdırılması məqsədilə vergilər naziri Fazil Məmmədovun əmri ilə Vergilər Nazirliyində aşağıdakı struktur dəyişiklikləri aparılıb:

- Vergi cinayətlərinin təhlili və vergi borclarının alınması Baş İdarəsi və Vergi auditi və operativ nəzarət Baş İdarəsi ləğv edilərək, onların bazasında Vergi qanunvericiliyinin icrasına nəzarət Departamenti və Vergi öhdəliklərinin icrasına nəzarət Departamenti yaradılıb.

Vergi ödəyicilərinə xidmət Baş İdarəsi ləğv olunaraq onun bazasında Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu Departamenti yaradılıb.

Vergilər Nazirliyi yanında Bakı Vergilər və 1 saylı Vergilər departamentləri ləğv olunaraq, onların bazasında Vergilər Nazirliyi yanında Xüsusi Gəlirlər Departamenti, Vergilər Nazirliyi yanında Lokal Gəlirlər Departamenti və Vergilər Nazirliyi yanında Bakı şəhəri Kiçik sahibkarlarla iş Departamenti yaradılıb.

# Vergi əməkdaşlarının peşəkarlığının yüksəldilməsinə diqqət artırılır

Dekabrın 16-da Vergilər Nazirliyində Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinqi Xidməti ilə birlikdə «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə» mövzusunda praktiki təlim keçilib. Təlim vergilər nazirinin 20 aprel 2016-cı il tarixli əmri ilə təsdiq edilmiş «Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi sahəsində 2016-cı il üçün Tədbirlər Planı» çərçivəsində səyyar vergi yoxlaması aparan vergi orqanlarının aidiyyəti vəzifəli şəxsləri üçün təşkil olunub.

Vergi orqanlarının 81 əməkdaşının iştirak etdiyi təlimdə iştirakçılara səyyar yoxlamanın metodiki əsasları, səyyar yoxlamanın predmeti, formaları, zərurət yarandığı təqdirdə tələb olunan sənədlərin tərtibatı, səyyar yoxlama ilə əhatə olunan məsələlər və yoxlamanın aparılması, nəticələrin rəsmiləşdirilməsi və nəticələr üzrə görülən tədbirlər barədə məlumat verilib, qanunsuz yolla əldə edilən pulların yuyulması, çirkli pulların yuyulma sahələri və metodları, bu sahədə aparılan digər əməliyyatlar barədə təqdimatlar edilib.

# Tədris Mərkəzində elmi seminar

Vergilər Nazirliyinin Tədris Mərkəzində «Kiçik biznesin vergiyə cəlb edilməsinin praktiki aspektləri (beynəlxalq təcrübə)» mövzusuna həsr olunmuş tədbir keçirilib. Mərkəzin «İqtisadiyyat və menecment» kafedrasının müdiri, kiçik vergi xidməti müşaviri İmran Qarayev bildirib ki, seminarın məqsədi ölkəmizdə kiçik sahibkarlığın tənzimlənməsində vergitutma amillərinin rolunu təhlil etməkdir. Azərbaycanda kiçik sahibkarlıq subyektlərinin mövcud vəziyyətinin təhlili və onun inkişaf meyillərinin üzə çıxarılması, sahibkarlıq mühitinin, sahibkarlığın regional strukturunun və inkişaf dinamikasının, dövlət tənzimlənməsi tədbirlərinin sistemliliyinin təhlili aktuallıq kəsb edir.

Qeyd olunub ki, işçilərinin sayı 25 nəfərədək və illik gəliri 200 min manatadək olan sahibkarlıq subyektləri kiçik, işçilərinin sayı 25 nəfərdən 125 nəfərədək, illik gəliri 200 min manatdan 1250 min manatadək olan sahibkarlıq subyektləri orta, işçilərin sayı 125 nəfər və ondan yuxarı və illik gəliri 1250 min manat və ondan yuxarı olan sahibkarlıq subyektləri iri sahibkarlar sayılır. Ölkədə kiçik müəssisələrin sayı 2011-ci ildə 60.223 olduğu halda, 2015-ci ildə bu göstərici 79.037-yə çatıb. Fərdi sahibkarların sayı isə 2011-ci ildə 364.600, 2015-ci ildə 576.906 olub. Kiçik və orta sahibkarlıq müəssisələrinin ÜDM-də payı Azərbaycanda 9,6%, Rusiyada 21%, Malayziyada 37%, Türkiyədə 38%, Sinqapurda 50%, Avropada (EU-27) 58%, Çində isə 60%-dir.

Seminarın gedişində iştirakçıların diqqəti, həmçinin, ölkəmizdə aparılan cari iqtisadi islahatlar çərçivəsində kiçik biznesin vergiyə cəlb olunması məsələlərinə də yönəldilib.

# Avtomatik məlumat mübadiləsi

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində «Avtomatik məlumat mübadiləsinin praktiki tətbiqi» mövzusunda seminar keçirilib. 35 ölkədən 67 nümayəndənin iştirak etdiyi tədbirdə Azərbaycanı Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəis müavini Rauf Namazov və həmin idarənin Məlumat mübadiləsi və inzibati yardım şöbəsinin dövlət vergi müfəttişi Fikrət Abdullayev təmsil ediblər.

Seminarın gedişində avtomatik məlumat mübadiləsinin praktiki tətbiqi və aspektlərinə Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndəsi tərəfindən nümayiş etdirilən təqdimat tədbir iştirakçıları tərəfindən yüksək dəyərləndirilib.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Fərdi xidmətlər göstərən şəxslər vergiyə cəlb olunacaq

Vergi sahəsində aparılan islahatların istiqamətlərindən biri uçotdan kənarda qalan sahibkarlıq fəaliyyəti sahələrinin qeydiyyata alınması, əmək müqaviləsi olmayan işçilərlə müqavilələrin bağlanmasının və onların vergi ödənişlərinin dövlət büdcəsinə ödənilməsinin təmin edilməsindən ibarətdir. Hazırda ölkəmizdə müxtəlif peşə sahələrində çalışan minlərlə vətəndaş mülki-hüquqi müqavilə ilə işləyir ki, onlar da faktiki olaraq vergi ödəmirlər. Yaxud mülki-hüquqi müqaviləsi olmayan şəxslərin də sayı kifayət qədər çoxdur və onlar da dövlət büdcəsinə vergi ödənişlərini yerinə yetirmirlər.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı təxminən 1 milyon 521 min nəfər təşkil edib, onlardan 888,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 632,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Muzdla işləyənlərin 22,1 faizi təhsil, 18,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 7 faizi tikinti, 3,1 faizi kənd və meşə təsərrüfatı, qalan 35 faizlik hissəsi isə müxtəlif peşə sahələri üzrə çalışanlar olub. Bu kateqoriyadan olan işçilərin orta aylıq nominal əməkhaqqı təxminən 489,3 manat təşkil edir.

Muzdla çalışan işçilərin hər biri vergi ödəyicisi hesab edildiyi üçün onlar hər ay gəlir vergisi ödəyir, beləliklə də öz vergi öhdəliklərini yerinə yetirmiş hesab olunurlar. Muzdlu əmək rejimindən kənarda qalan insanlar isə qeyri-leqal məşğul qrupa aid edilirlər. Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədovun sözlərinə görə, ölkədə məşğul əhalinin sayı 4 milyon 550 nəfər təşkil edir və əmək müqaviləsi ilə işləyənlərin sayı 1,5 milyondur. Yerdə qalan 3 milyon məşğul insan isə mülki-hüquqi müqavilə ilə işlər və xidmətlər həyata keçirənlər, qeyri-formal əmək bazarının iştirakçılarıdır: «Son illər əmək bazarında fərdi qulluqçuların, ev işçilərinin, digər peşələrin heç bir müqavilə və ya sənəd olmadan əməyə cəlb edilməsi halları artıb. Onların sırasında sahibkarlıq fəaliyyəti (foto, audio-video xidmətləri, repetitorluq, musiqi fəaliyyəti, bərbər və gözəllik salonları, ev qulluqçusu, xəstələrə, uşaqlara və qocalara qulluq xidməti, fərdi sürücülük, fərdi mühafizə, fərdi peşələr üzrə hazırlıq kursları, tərcümə və s.) ilə məşğul olanlar az deyil və bu şəxslər hazırda vergi ödənişlərini yerinə yetirmirlər. Qanunvericiliyə əsasən, fərdi xidmətlər göstərən bu şəxslər digər gəlir əldə edənlər kimi vergi ödəməlidirlər».

Mövcud problemin həlli məqsədilə 2017-ci ildən bir sıra fəaliyyət sahələri üçün aylıq sabit verginin tətbiqi nəzərdə tutulur. Nəzarət-kassa aparatlarının tətbiqinin mümkün olmadığı və nağd pul hesablaşmalarının aparıldığı sahələrdə çalışan şəxslər üçün onların gəlirlərinə müvafiq aylıq sabit vergi forması müəyyən ediləcək. Sabit vergi, fiziki şəxslərin əldə etdiyi gəlirlərin həcmindən asılı olmayaraq, aylıq vahid məbləğdə müəyyən edilən vergi olacaq. Sabit verginin tətbiqi praktikası hazırda qüvvədə olan Vergi Məcəlləsində də mövcuddur (avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər üçün «fərqlənmə nişanı»nın alınması və s.).

Vergi Məcəlləsinin 220.10-220.12-ci maddələrinə edilən əlavələrə əsasən, toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət növü ilə məşğul olanlar şəxs sadələşdirilmiş vergiyə cəlb olunacaq. Müğənnilər istisna olmaqla bu cür fəaliyyət növləri ilə məşğul olan şəxslərin ayda sabit olaraq Vergi Məcəlləsi ilə müəyyən olunan kiçik məbləğlərdə vergi ödəyəcəyi nəzərdə tutulur. Həmin fəaliyyət sahələrinə vergi tətbiqi vergi inzibatçılığının yüngülləşdirilməsinə və vergi ödəmələrinin bəyannamə təqdim olunmadan, çox rahat bir qaydada yerinə yetirilməsinə imkan verəcək.




**Nəzarət-kassa aparatlarının tətbiqinin mümkün olmadığı və nağd pul hesablaşmalarının aparıldığı sahələrdə çalışan şəxslər üçün onların gəlirlərinə müvafiq aylıq sabit vergi forması müəyyən ediləcək**

Qeyd olunan sahələrin vergiyə cəlb olunmasını müsbət qiymətləndirən S.Məmmədov hesab edir ki, Vergi Məcəlləsinə əlavə və dəyişikliklərlə yanaşı, «Sosial sığorta haqqında» Qanuna və digər normativ hüquqi aktlara müvafiq əlavə və dəyişikliklərin edilməsi də vacibdir.

**Elbrus CƏFƏRLİ**

# Yeni sığorta xidmətləri yaradılacaq

«Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji yol xəritəsi» qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanıb. «Strateji yol xəritəsi» qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışından ibarətdir. Sənəddə müəyyən edilmiş məqsədlərə çatmaq üçün 2020-ci ilədək 5 strateji hədəf və 16 prioritet müəyyənləşdirilmişdir.

Prioritetlərdən biri sığorta bazarının inkişafı ilə bağlıdır. Azərbaycanın sığorta bazarı son illərdə ümumi iqtisadi inkişaf fonunda stabil artım nümayiş etdirsə də, onun maliyyə sektoruna və iqtisadiyyata təsiri minimum səviyyədədir. Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) məlumatına əsasən, sığorta bazarında 2010-2015-ci illərdə orta illik artım tempi 20 faiz təşkil etmişdir. Ötən il Azərbaycanda sığorta haqlarının həcmi artaraq 444 milyon manat olsa da, onun ÜDM-də xüsusi çəkisi cəmi 0,8 faizdir. Sığorta haqlarının ÜDM-ə nisbətinin aşağı olmasının səbəblərindən biri sığorta şirkətlərinin müəyyən sektorlar və həmin sektorlarla bağlı risklər haqqında tam məlumatlı olmamasıdır. Bu isə sığorta şirkətlərinin həmin qruplar üçün müxtəlif məhsul təklifləri hazırlamağa maraq göstərməməsinə gətirib çıxarır.

«Strateji yol xəritəsi»ndə qeyd edilir ki, sığorta bazarının genişlənməsi, əhalinin sığorta təminatı almayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədilə yeni sığorta məhsullarının yaradılmasına ehtiyac var.

***Kənd təsərrüfatı sığortası:*** Maliyyə resurslarına çıxış imkanlarının artırılmasının effektiv vasitələrindən biri kənd təsərrüfatı sahəsinə xas olan risklərin sığorta alətləri vasitəsilə azaldılmasıdır. Kənd təsərrüfatı sığortası bir tərəfdən hava şəraiti və qiymətlərin dəyişkənliyi səbəbindən fermerlərin məhsuldarlıq və mənfəətliliklə bağlı risklərini azaldır, digər tərəfdən isə kredit öhdəliklərinə xidmət imkanlarını artırmaqla sektorun kreditləşməsi potensialını yüksəldir. Kənd təsərrüfatı risklərinin sığortası ən mürəkkəb sahələrdən biri olduğundan, xüsusi bilik tələb edir. Bu səbəbdən, sığorta şirkətləri bu seqmenti yüksək riskli fəaliyyət sahəsi kimi dəyərləndirirlər. Bu sahə üzrə statistik və analitik məlumatların aşağı səviyyədə olması sektorun kreditləşməsini də çətinləşdirir. Bu baxımdan, Azərbaycanın sığorta bazarının xüsusiyyətlərinə, kənd təsərrüfatı şəraitinə və dövlət siyasətinə uyğun olan kənd təsərrüfatı sığortası modelinin seçilməsi və tətbiqi mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatı sığortası mexanizmi kifayət qədər böyük institut olduğundan, onun formalaşdırılması və yaradılması zamanı dövlətin aqrar sahə ilə bağlı strateji siyasəti, kənd təsərrüfatı infrastrukturunun əhəmiyyəti və s. amillər diqqətdə saxlanılmalıdır.

***Mikrosığorta:*** Bu bazarın inkişafı aşağı gəlirli ev təsərrüfatlarına daha az sığorta haqqı müqabilində sığortalanma imkanı yaradır. Qanunvericilikdə mikrosığorta mexanizminə dair müddəa nəzərdə tutulmamışdır və bu sığorta növü inkişaf etməmişdir. Hərtərəfli normativ hüquqi çərçivə mikrosığorta bazarının inkişafı üçün vacib amildir. Bu zaman effektiv nəzarətin həyata keçirilməsi ilə yanaşı, mikrosığorta təklifinin formalaşdırılması və xidmətin effektiv şəkildə ev təsərrüfatlarına çatdırılması təşviq olunmalıdır.

***Müştərək sığorta:*** Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri, mövcud qanunvericiliyə əsasən, «ənənəvi, yəni kommersiya əsaslı sığorta fəaliyyətini həyata keçirsə də, qeyri-kommersiya əsaslı müştərək sığorta məhsulu təklif etmirlər. Ənənəvi sığorta riskin ötürülməsinə, əməkdaşlıq sığortası isə risklərin bölüşdürülməsinə əsaslanan sığorta münasibətləri sistemidir. Azərbaycanda qeyri-kommersiya əsaslı əməkdaşlıq sığortasının formalaşdırılmasına ehtiyac vardır.

***İcbari tibbi sığorta:*** Sənəddə qeyd edilir ki, Azərbaycanda bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə tətbiq olunan icbari tibbi sığortanın reallaşdırılması üçün təşəbbüs göstərilir. Bu sığorta növünün tətbiqi və idarəetmə sisteminin formalaşdırılması məqsədilə bir sıra normativ aktlar qəbul olunmuş, həmçinin Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılmışdır. Eyni zamanda, ölkə başçısının 2016-cı il 29 noyabr tarixli fərmanı ilə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Çoxşaxəli proses olan icbari tibbi sığortanın təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən, subyektlər arasındakı münasibətləri tənzimləyən «Tibbi sığorta haqqında» Qanun 1999-cu il 28 oktyabr tarixindən qüvvədədir. O vaxtdan bəri inkişaf etmiş ölkələrdə tətbiq olunan icbari tibbi sığorta modelləri təkmilləşdirilmiş, yeni yanaşmalar və konsepsiyalar ortaya qoyulmuşdur. Hazırda beynəlxalq təcrübədə özünü doğrultmuş icbari tibbi sığorta sistemlərində bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan maliyyələşmə, sığorta haqlarının fondlarda cəmlənməsi və idarə olunması kimi uğurlu mexanizmlər tətbiq olunmaqdadır. Bu əsasda Azərbaycanın icbari tibbi sığorta modelinin qabaqcıl təcrübəyə malik ölkələrin modelinə uyğunlaşdırılması, həmçinin seçilmiş model əsasında «Tibbi sığorta haqqında» Qanunun təkmilləşdirilməsi həyata keçirilə bilər.

**Görüləcək tədbirlər**

Sənəddə yuxarıda qeyd edilən sahələrin inkişafı məqsədilə görüləcək tədbirlər də yer alıb. Bu tədbirlərin həyata keçirilməsi üçün Maliyyə Bazarlarına Nəzarət Palatası sığorta sahəsi üzrə aidiyyəti qurumların iştirakı ilə yaradacaq işçi qruplar tərəfindən cari vəziyyətin diaqnostikası aparılaraq qabaqcıl beynəlxalq təcrübə araşdırılacaq, hər bir sığorta sahəsi üzrə hüquqi, tənzimləyici və institusional çərçivənin formalaşdırılması istiqamətində görüləcək işlər və hər bir sığorta sahəsi üçün əməliyyat modeli müəyyənləşdiriləcəkdir. Sığorta sistemində məlumatların toplanması, məlumat sistemləri və mübadilə prosesləri maliyyə xidmətləri sektorunda müvafiq təşəbbüslər kontekstində nəzərdən keçiriləcəkdir. Məsələn, müxtəlif risk amilləri nəzərə alınmaqla kənd təsərrüfatı sığortası məhsulları üzrə qiymətlərin təyin olunması üçün məlumat sistemi yaradılacaq. Hər bir sığorta sahəsinin inkişafı üzrə tədbirlər planı hazırlanacaq və icrasına başlanılacaqdır. İşçi qrup müəyyən edilmiş təşəbbüslərə uyğun olaraq sektorun inkişaf səviyyəsini müntəzəm şəkildə qiymətləndirəcək, bundan başqa, sığorta sektorunda əlavə sahələrə diqqət yetirilməsi imkanlarını, eləcə də sığorta siyasətindəki zəruri dəyişiklikləri davamlı şəkildə qiymətləndirəcəkdir.

**Gözlənilən nəticə**

Yeni sığorta xidmətlərinin yaradılması maliyyə vasitəçiliyinin dərinləşməsinə və inklüzivliyin artmasına təkan verəcəkdir. Kənd təsərrüfatı sektorunda risklərin sığortalanması maliyyə resurslarına çıxış imkanlarını genişləndirəcək və sektorun artımını dəstəkləyəcəkdir. Sığorta penetrasiyasının (sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbətinin) 1,4 faizə çatması müəyyənləşdirilmişdir. Prioritetin 2020-ci ildə real ÜDM-ə təsirinin, 85 milyon manat birbaşa və 40 milyon manat dolayı olmaqla, ümumilikdə 125 milyon manat olacağı gözlənilir. ÜDM-ə müsbət töhfə sığorta sektorunun gəlirlərinin artması və nəticədə penetrasiya səviyyəsinin yüksəlməsi ilə izah olunur. Qarşıya prioritet kimi qoyulmuş bu vəzifələrin həyata keçirilməsi nəticəsində 1600 yeni iş yerinin yaradılması gözlənilir.

**AYTƏN**

# Asılı təsərrüfat cəmiyyətləri

***«Asılı təsərrüfat cəmiyyətlərinə investisiyaların uçotu» Milli Mühasibat Uçotuna görə, asılı təsərrüfat cəmiyyəti, ortaqlıq kimi səhmdar cəmiyyəti olmayan müəssisələr daxil olmaqla, investorun əhəmiyyətli təsirə malik olduğu, lakin onun nə törəmə, nə də birgə müəssisəsi olmayan müəssisədir.***

Müəssisənin maliyyə və əməliyyat siyasəti ilə bağlı qərarların verilməsində iştirak etmək səlahiyyəti əhəmiyyətli təsir gücü hesab edilir, lakin həmin siyasət üzərində nəzarəti və ya birgə nəzarəti təmin etmir. «Faustus» hüquqi xidmətlər mərkəzinin direktoru Vasif Rzayevin fikrincə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 68-ci maddəsinə əsasən, təsərrüfat cəmiyyəti o halda asılı cəmiyyət sayılır ki, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olur: «Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxunu və ya səhmdar cəmiyyətin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxunu əldə edən təsərrüfat ortaqlığı və ya cəmiyyəti bu barədə məlumatı ləngimədən dərc etdirməlidir».

Mütəxəssisin sözlərinə görə, əgər investor, birbaşa və ya dolayı olaraq (məsələn, törəmə müəssisələri vasitəsilə), investisiya obyektinin səsvermə hüququ verən səhmlərinin 20 və ya daha çox faizinə sahib olarsa, onun əhəmiyyətli təsirə malik olduğu hesab edilir: «Lakin buna baxmayaraq, səhmlərin 20 və ya daha çox faizinə sahib olmaqla yanaşı, əhəmiyyətli təsirə malik olmamaq mümkündür. Digər tərəfdən, əgər investor, birbaşa və ya dolayı olaraq (məsələn, törəmə müəssisələri vasitəsilə), investisiya obyektinin səsvermə hüququ verən səhmlərinin 20 faizindən az faizinə sahib olarsa, onun əhəmiyyətli təsirə malik olmadığı hesab edilir. Buna baxmayaraq, səhmlərin 20 faizindən az faizinə sahib olmaqla da əhəmiyyətli təsirə malik olmaq mümkündür».

Qaydalarda əsas cəmiyyət və asılı cəmiyyət arasındakı hüquqi münasibətlər aydın müəyyən edilib. Əsas cəmiyyət asılı cəmiyyətin fəaliyyətinin istənilən sahəsinə aid vacib qərarların verilməsində iştirak edə bilər, asılı cəmiyyət isə bu qərarları mütləq şəkildə yerinə yetirməlidir. Lakin əsas cəmiyyətin qərarı asılı cəmiyyətin müflis olmasına gətirib çıxarıbsa, əsas cəmiyyət qəbul etdiyi qərarlarla bağlı tam məsuliyyət daşıyır. Asılı cəmiyyət əsas cəmiyyətin öhdəliklərinə görə məcburi şəkildə məsuliyyət daşımır. Bu cür asılı müəssisələr həm ölkədə, həm də xaricdə yerləşə bilər. Onlar adi hüquqi şəxs kimi fəaliyyət göstərirlər.

V.Rzayev qeyd edib ki, asılı cəmiyyətin səhmlərinin 20%-dən çoxunu alan əsas cəmiyyət bu məlumatı kommersiya sirrinə aid edə bilməz, bu hüquqi-təsərrüfat münasibətləri barədə rəsmi məlumat verməlidir və bütün lazımi məlumatlar müvafiq dövlət qeydiyyatı orqanlarında dərc etdirilməlidir: «Mülki Məcəllənin 68.2 maddəsinə əsasən, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxunu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxunu əldə edən təsərrüfat ortaqlığı və ya cəmiyyəti bu barədə məlumatı ləngimədən dərc etdirməlidir.

Mühasibat uçotunda asılı cəmiyyətlərə investisiyalar iştirak payı metodu ilə uçota alınır. İştirak payı metodu investisiyanın əvvəlcə ilkin dəyəri ilə tanındığı və daha sonra investorun investisiya obyektinin xalis aktivlərindəki payında alışdan sonrakı dəyişikliklər üzrə düzəlişlərin edilməsi deməkdir. İnvestorun mənfəət və zərər haqqında hesabatında onun investisiya obyektinin mənfəət və ya zərərindəki payı əks etdirilir. İnvestorun investisiya obyektinin mənfəət və ya zərərindəki payı investorun mənfəət və ya zərərində tanınır».

**Fəxriyyə İKRAMQIZI**


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Oksfam «ən pis vergi limanları»nın siyahısını yaydı

Yoxsulluğa və Ədalətsizliyə Qarşı Mübarizə Beynəlxalq Təşkilatı Oksfam «yoxsulluqla və ictimai problemlərlə mübarizə aparmaq üçün zəruri olan vergi daxilolmaları şəklində milyardlarla dollar vəsaitdən məhrum edilən» ayrı-ayrı ölkələrin və regionların iqtisadiyyatına daha çox mənfi təsir göstərən ən pis offşor zonaların siyahısını nəşr etmişdir.

Siyahıya bu vergi limanları daxil edilmişdir: Bermud və Kayman adaları, Niderland, İsveçrə, Sinqapur, İrlandiya və Lüksemburq. Siyahı «ziyanlı və qeyri-məhsuldar» vergi siyasətinin aparılması dərəcəsinə uyğun olaraq tərtib edilmişdir. Bu cür vergi siyasətinə daxildir: korporativ verginin sıfır dərəcəsi, istehsal üçün stimulların verilməməsi, vergi informasiyasının mübadilə edilməsi və vergi ödəməkdən yayınmaq kimi məsələlərlə bağlı beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətlərin olmaması.

Oksfam təmsilçilərinin sözlərinə görə, bir çox ölkələrin hökumətləri ciddi qalmaqallara cəlb olunmuşlar ki, buna misal kimi İrlandiya hökumətinin «Apple» şirkəti ilə korporativ vergilərin «xüsusi şərtləri» haqqında razılaşmasını göstərmək olar.

# İspaniya hökuməti 2017-ci il üçün vergi dəyişikliklərini açıqladı



Hökumət korporativ vergidən gəlirlərin artması hesabına ölkə büdcəsinə daxilolmaların yüksəlməsi barədə açıqlama vermişdir. Bununla belə, bu yaxınlarda formalaşdırılmış hökumət korporativ verginin 25 faizlik dərəcəsini sabit saxlamaq barədə qərar çıxaranda İspaniyada korporativ vergi tutulmaları məhdudlaşdırılacaq. Bu addımın atılması xəzinəyə əlavə 7 milyard avro vəsait daxil olmasına şərait yaradacaq.

Büdcədə «offşor limanlarında və ya vergilərin müvafiq səviyyəsini dəstəkləməyən ərazilərdə» yerləşən şirkətlərdəki səhm paketlərinə aid itkilərdən istifadə ilə bağlı yeni məhdudlaşdırmalar da nəzərə alınmışdır. Gözlənildiyinə görə, yeni korporativ vergi tədbirləri büdcəyə əlavə 4,6 milyard avro vəsait cəlb edəcək.

Bundan başqa, daşınmaz əmlakın qiyməti həmin əmlaka qoyulan vergiyə əsasən yenilənəcək. Hökumət bir sıra vergi növlərinin, o cümlədən spirtli içkilər, tütün məhsulları, tərkibində şəkər olan içkilər və s. kimi məhsullara tətbiq olunan vergilərin dərəcələrini artırmaq niyyətindədir. Digər dəyişikliklər əlavə dəyər vergisinin modernləşdirilməsinə və bu sahədə fırıldaqla mübarizə sisteminə yönəldilmişdir. Buraya hələ 2014-cü ildən elan edilmiş ƏDV üzrə hesabatların real vaxt rejimində açıqlanması sisteminin tətbiqi daxildir. Vergi ödəyiciləri verilmiş hesab-qaimələrlə bağlı əməliyyatlar haqqında dörd gün müddətində məlumat verməli olacaqlar. ƏDV rejimi İspaniyada iri şirkətlər və qruplar da daxil olmaqla 62 min iri vergi ödəyicisini əhatə edəcək.

# Çin korporativ borcun restrukturizasiyası üçün vergi güzəştləri təklif edir

Dekabrın əvvəlində Çinin Maliyyə Nazirliyi korporativ borcların azaldılması məqsədilə onların restrukzasiyasını aparan şirkətlərə veriləcək vergi güzəştləri sistemini təqdim etmişdir. Bu siyasət müəssisələrə öz itkilərini azaltmağa kömək etmək, eləcə də korporativ borc vəsaitləri üçün əlverişli şərait yaratmaq məqsədilə həyata keçirilir.

Dövlət Şurasının qərarına əsasən, müflisləşmə, birləşmə, udulma və ya ləğv prosesindən keçən şirkətlər vergiləri ödəməyi təxirə sala və ya 5 il müddətində hissələrlə ödəyə bilərlər. Bundan əlavə, ƏDV əsas vəsaitlərin və torpaq üzərində hüquqların ötürülməsinə tətbiq edilməyəcək. Dövlət Şurasından bildirilmişdir ki, vergi güzəştləri yalnız müvəqqəti çətinlikləri olan şirkətlərə aid ediləcək, maliyyə ilə bağlı davamlı problemləri olan və sabit gəlir əldə etməyən «zombi şirkətlərə» isə bunun heç bir aidiyyəti olmayacaq.

# BEPS layihəsi dəstəklənir

BRİKS-ə (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikadan ibarət iqtisadi birlik) daxil olan ölkələrin vergi orqanlarının rəhbərləri vergi tutulan bazanın yuyulmasına və gəlirlərin vergidən yayındırılmasına qarşı mübarizə (BEPS) üzrə OECD-nin fəaliyyət planının tətbiqini müzakirə etmək üçün Mumbai şəhərində bir araya gəlmişlər

Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikanın təmsilçiləri birgə kommunike imzalayaraq digər ölkələri də BEPS-ə nəzarət üzrə normalara ardıcıl və vaxtında əməl etməyə çağırmışlar. Görüş iştirakçıları bu prosesdə təcrübə mübadiləsi aparmaq barədə də razılığa gəlmişlər. Bundan əlavə, BRİKS ölkələri arasında vergidən yayınma hallarına qarşı mübarizədə inkişaf etməkdə olan ölkələrə yardım göstərmək barədə də razılıq əldə olunmuşdur.

# Böyük Britaniya bilet alıb-satan şirkətləri vergi ödəməyə məcbur edəcək

Ölkənin vergi xidməti ƏDV və digər vergilərin ödənilməməsinin qarşısını almaq üçün biletlərin ikinci əldən satılması ilə bağlı geniş araşdırma aparmağı planlaşdırır. Bu təklif vergi orqanlarına mədəniyyət, media və idman sahələrini təmsil edən komitədən gəlmişdir. Onlar bilet alıb-satan təşkilatların fəaliyyətini araşdıraraq belə hesab edirlər ki, bu biznesin böyük qismi "kölgədə baş verir, həmin şirkətlər biletləri istehlakçılara xeyli şişirdilmiş qiymətlərə satırlar.

Komitənin müraciətində vergi xidmətindən və yerli idarəetmə orqanlarından təqdim olunmuş sübutlar əsasında araşdırma aparmaq xahiş edilmişdir.

## Xəbər lenti

**Cersi adaları**nda təklif olunmuş plana əsasən, 2018-ci ildən başlayaraq bu adaya gələn zəngin immiqrantlardan rezidentlərin hazırda ödədikləri vergidən əhəmiyyətli dərəcədə çox vergi tutulacaq.

**Avropa Parlamenti**nin, Avropa İttifaqının və Avropa Komissiyasının prezidentləri «vergi fırıldaqçılığına, vergidən yayınmaya qarşı mübarizədə, eləcə də etibarlı və ədalətli vergi sisteminin təmin olunmasında» irəliləyiş etməyin zəruriliyi barədə razılığa gəlmişlər.

**Kanada**nın offşorlar üzrə məşvərət komitəsi ölkənin vergi administrasiyasına vergilərlə bağlı məlumatların könüllü verilməsi proqramı üzrə araşdırmanın nəticələrini elan etmişdir.

**İrlandiya**nın vergi idarəsi vergi ödəyicilərinə öz vergi məsələlərini azad şəkildə idarə etmələrinə yardım məqsədilə yeni mobil əlavəni istismara vermişdir. «RevApp» adlanan bu əlavə bir sıra onlayn xidmətlərə giriş yaradır.

**Beynəlxalq Valyuta Fondu**nun məlumatına əsasən, Uruqvayda orta gəlirli vətəndaşların gəlirlərindən tutulan vergilərin artırılmasına baxmayaraq, iqtisadi fəallıq sabit qalır. Fondun mövqeyinə görə, orta və yuxarı gəlirli işçilər üçün vergi dərəcəsinin artırılması elektron ticarət üzrə ƏDV dərəcələrinin aşağı salınmasını tarazlaşdıracaqdır.

**Yeni Zelandiya**nın gəlirlər naziri hökumətin gəlirlər sisteminin yenidən qurulması planı çərçivəsində vergi qanunvericiliyinin sadələşdirilməsi və modernləşdirilməsi təklifi ilə çıxış etmişdir.

# Yunanıstan yeni vergilər tətbiq edəcək

Parlament tərəfindən təsdiqlənmiş 2017-ci il büdcəsində beynəlxalq kreditorlar tərəfindən irəli sürülmüş sərt iqtisadi tədbirlər nəzərə alınmışdır. Bununla belə, qarşıdan gələn il üçün planlaşdırılmış ciddi qənaət rejimi şəraitində iqtisadiyyatın artımı gözlənilir. Baş nazir Aleksis Tsipras demişdir ki, 2017-ci il on ildir davam edən maliyyə böhranının sonu olacaq.

Büdcədə ölkənin yeni vergilər hesabına əlavə 1 milyard dollar vəsait əldə edəcəyi gözlənilir. Bu, əsasən, mobil rabitəyə görə ödənişlərdən və alkoqollu içkilərə verilən lisenziyalardan tutulan dolayı vergilərdir. Yunanıstanın əsas maliyyə sənədində həm də vəsaitlərin 1 milyard dollardan artıq azaldılması təklif edilmişdir. Maliyyə naziri bildirmişdir ki, Beynəlxalq Valyuta Fondu 2019-cu ildən büdcənin daha da azaldılmasını təklif edir, təkliflər arasında əməkhaqqı və pensiyaların 4,5 milyard avro həcmində kəsilməsi də var.

## krossvord



**Yuxarıdan aşağı:** 1. Pişiklər fəsiləsindən məməli heyvan növü; 2. Qiymətli kağızın, kağız pulun, yaxud sikkənin üzərində göstərilən ilkin dəyəri. 3.«Telefonçu qız» filminin (1962) baş qəhrəmanı Mehriban obrazını canlandırmış ukraynalı aktrisanın adı; 4.Azərbaycanda qadın adı; 5.Belçikada şəhər; 6.Fiziki işgörmə qabiliyyətini yüksəltmək, bərpa prosesini sürətləndirmək, idman nəticələrini yaxşılaşdırmaqdan ötrü müxtəlif stimullaşdırıcı maddələrin ümumi adı; 7.Altay Respublikasında çay; 13.Tatarıstan Respublikasında şəhər; 15.Arxitektura termini. Dairəvi formada tikilən günbəzli bina; 16.Linqvistikada deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə tamamilə fərqlənən sözlər; 17. Rusiyanın paytaxt şəhəri; 18.Azərbaycanda ən məşhur şəlalələrdən biri. Quba rayonu ərazisində Vəlvələçay üzərində yerləşir; 20.XIX əsrdə yaşayıb yaratmış Azərbaycan şairi; 21.Fransız mətbəxinə aid xörək. Yumurtadan və digər inqrediyentlərdən hazırlanır. **Soldan sağa:** 1.Yunanıstanda yaradılan bu idman növünün adının mənası yunancadan tərcümədə «yumruqla güləş» anlamını verir. İdmançılar çox zədə aldığı üçün sonralar Olimpiya oyunlarının proqramından çıxarılmışdır; 8.Tibet və Monqolustanda yayılmış buddizm məzhəblərindən biri; 9.Memarlıqda konus hissə, tağvari konstruksiya; 10.İspaniyanın şimalında çay; 11.Avstriyanın paytaxtı Vyanada yerləşən və Avropada ən çox turist cəlb edən saray; 12.Azərbaycan dramaturqu C.Cabbarlının pyesi; 14.Qatığı çalxalamaqla yağ əldə etmək üçün qab; 19.Erkən İntibahın ilk nümayəndəsi, Cotto ənənələrini qəbul etmiş, xətti perspektiv prinsiplərindən istifadə edən florensiyalı rəssam; 21.Əlcəzairin şimal-qərbində şəhər; 22.İdman geyimləri istehsal edən dünya şöhrətli ABŞ şirkəti; 23.Dalğıc və kosmos uçuşları üçün geyim; 24.Şəhər rəhbəri; 25.Mərkəzi



«Telefonçu qız» filminin baş qəhrəmanı

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Külüs; 2.Nəbahat (Çehrə); 3.İvrea; 4.Talabı; 5.Duatlon; 6.Rübab; 7.Balina; 13.Nias; 15.Varşava; 16.Eşelon; 17.Çələbi; 18.Kolıma; 20.Hədik; 21.Kramp. **Soldan sağa:** 1.Konkistador; 8.Liberal; 9.Akbel; 10.Səhra; 11.Balaban; 12.Stend; 14.Aniva; 19.Şahzadə; 21.Karqo; 22.Lada; 23.Kəlağayı; 24.Nik; 25.Olimpiada.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# «Synergy Baku» velosiped komandası dünya reytinqində dördüncü olub



Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) dünyanın velosiped komandalarının 2016-cı il üçün yekun reytinq siyahısını açıqlayıb. Azərbaycanın «Synergy Baku Cycling Project» kontinental velosiped komandası 2016-cı ildə keçirilən yarışlarda əldə etdiyi nəticələrə əsasən, planetin bütün qitələrini təmsil edən 54 ölkənin 176 kontinental klubu arasında 4-cü yerdə qərarlaşıb.

Reytinq sıralanmasında Belçika hamıdan çox - 13 klubla təmsil olunur. 2016-cı ildə beynəlxalq yarışlarda Çin Xalq Respublikasının 11, Yaponiya və ABŞ-ın 10, Danimarka, Almaniya və Hollandiyanın isə 7 kontinental komandası iştirak edib ki, onlardan yalnız Belçikanın 3 klubu reytinq sıralamasında «Synergy Baku»nu qabaqlaya bilib. Yəni ölkələr üzrə götürəndə, 54 ölkə arasında cəmi bir komandası olan Azərbaycan yalnız Belçikadan geri qalmaqla dünyada 2-ci yerə çıxıb.

2016-cı ildə «Synergy Baku» iştirak etdiyi 4 qitə yürüşü - «Tour of Croatia», «Tour d'Azerbaidjan», «Tour of Serbia» və «Tour of Szeklerland» (Rumıniya) yarışlarında komanda hesabında çempion adını qazanıb. Komandamızın təmsilçiləri il ərzində mübarizə apardıqları yarışlarda 34 dəfə fəxri kürsüyə qalxıb, 9 dəfə mərhələ qalibi olub, 5 dəfə isə bu idman növündə ən yüksək nəticə ediblər. Bir məqamı da vurğulamaq lazımdır ki, 176 kontinental və 23 pro-kontinental komandanın birgə açıqlanan reytinqində «Synergy Baku» hətta səviyyəcə özündən bir pillə yüksəkdə olan 9 pro-kontinental, yəni peşəkar qitə klubunu da geridə qoyub.

Velosipedçilərimizin il ərzində əldə etdikləri nəticələr təkcə bununla yekunlaşmayıb. Qadın velosipedçimiz Yelena Pavluxina Çexiyada keçirilən «Gracia Orlova» yürüşünün qalibi olmaqla yanaşı, Çində təşkil olunan Dünya Turu yarışında və Avropa çempionatının fərdi ötüşmə növündə 9-cu yeri tutub. Trek velosipedçimiz Sergey Omelçenkonun Avropa çempionatında bu idmanın keyrin növündə 9-cu yeri tutması da ilin yadda qalan hadisələri sırasındadır. 2016-cı ilin önəmli hadisələrindən biri də ölkəmizin tarixində ilk dəfə olaraq velosipedçilərimizin Rio-de-Janeyroda keçirilən Yay Olimpiya Oyunlarına 4 lisenziya qazanması olub.

Beynəlxalq Velosipedçilər İttifaqının təqvimində özünəməxsus yer tutmuş «Tour d'Azerbaidjan» veloyürüşü də başa çatmaqda olan ilin əsas idman yarışlarından biri kimi tarixin yaddaşına həkk olunub. On səkkiz ölkədən 6-sı peşəkar kontinental olmaqla 21 komandanın mübarizə apardığı veloturda velosipedçilər Bakı, Sumqayıt, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəkidən keçməklə 790 kilometrdən çox məsafə qət ediblər. «Synergy Baku» isə 5 mərhələdən 2-sində qalib olub, eləcə də ötən il olduğu kimi, bu dəfə də komanda hesabında 1-ci yeri tutmaqla azarkeşlərə sevinc dolu anlar bəxş edib.

# Yeniyetmə güləşçilərimiz beynəlxalq turnirdə...



Dağıstanın Kaspiysk şəhərində dünya və beşqat Avropa çempionu Kuramaqomed Kuramaqomedovun mükafatı uğrunda sərbəst güləş üzrə yeniyetmələr arasında VII beynəlxalq turnir keçirilib. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, böyük məşqçi Əsgərxan Novruzov və məşqçi Ruslan Şəmilovun rəhbərliyi altında yarışda iştirak edən güləşçilərimiz 1 qızıl, 2 gümüş və 2 bürünc medal qazanıblar.

Qızıl medalı yığmamıza 63 kiloqram çəkidə mübarizə aparan Hacımurad Hacıyev qazandırıb. Bütün rəqiblərini məğlub edən təmsilçimiz finalda Xasavyurt güləş məktəbinin yetirməsi Kazbek Heydərovdan üstün olub.

Gümüş medallar isə yalnız final görüşündə uduzan Məhəmmədsaleh Abakarov (42 kq) və Ramiz Həsənovun (50 kq) payına düşüb. İslam Əliyev və Abdulmuslim Mamedov (hər ikisi 76 kq) isə bürünc medala sahib olublar.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Vaqif Zeynallı təmsil edib.

## Azərbaycanlı referi «İlin parlayan ulduz hakimi»dir



Avropada ilin ən yaxşı hakimləri bəlli olub. UEFA-da beynəlxalq futbol hakimliyi sahəsində ixtisaslaşmış «The3rdTeam» bloqu tərəfindən aparılan seçimlərdə ingiltərəli Mark Klattenburq 110 xalla qitənin ən yaxşısı adına layiq görülüb. Polşalı Şimon Marçinyak 86 xalla ikinci, 70 xal toplayan sloveniyalı Damir Skomina isə üçüncü yeri tutub.

Bu ildən etibarən hakimlərlə bağlı yeni mükafat təsis olunub. 2016-cı il ərzində ən böyük inkişafa nail olan Avropa referisi üçün müəyyənləşdirilən «İlin parlayan ulduz hakimi» mükafatının da qalibi açıqlanıb. İyirmi doqquz yaşlı Azərbaycan hakimi Əliyar Ağayev 2016-cı ildəki irəliləyiş üçün Avropada ən yaxşı hesab edilib.

mozaika

cəmiyyət

## Stradivarinin skripkası



Antonio Stradivarinin skripkasının alınması üçün vəsait toplanması kampaniyası Polşanın müstəqilliyinin əldə edilməsinin 100 illiyinə hazırlıq proqramına daxil edilib.

Ən mahir skripka ustasının hazırladığı skripkalar vaxtilə Polşada olsa da, hazırda onlardan biri də bu ölkədə yoxdur. Vəsaitin yığılması kampaniyasına qoşulmaq çağırışını 200-dən çox mədəniyyət xadimi - artistlər, festival direktorları, musiqi tənqidçiləri, o cümlədən böyük bəstəkar Kşiştof Penderetski və xanımı Eljbeta imzalayıblar. Kampaniyanın ideya müəllifi Milli Musiqi Forumunun direktoru Ancey Kosendyakdır. Təşəbbüs qrupunun fikrincə, Polşanın musiqi mədəniyyətinin beynəlxalq nüfuzu Stradivari skripkası kimi musiqi aləti sayəsində daha da artacaq.

Ancey Kosendyak xatırladıb ki, Polşa kralı II Avqust Antonio Stradivariyə bir neçə skripka sifariş edib.

## Parkinson xəstələri üçün...

ABŞ-ın «Liftware» şirkəti əlin əsməsindən əziyyət çəkən insanlara yemək alətlərindən istifadə etməyə imkan verən qurğu hazırlayıb. Bu barədə istehsalçı öz saytında məlumat verib. Əl və ayaqların əsməsi müxtəlif xəstəliklərin simptomu ola bilər ki, bunlardan biri də Parkinson xəstəliyidir. Əllərin titrəməsi gündəlik hərəkətlərin yerinə yetirilməsinə maneə yaradır, eyni zamanda bu xəstəlikdən əziyyət çəkən insanlar qida qəbulu zamanı ciddi çətinliklərlə üzləşirlər. Əsmələrin azaldılması məqsədilə tez-tez medikomentoz terapiyadan istifadə olunsa da, son zamanlar digər müalicə üsulları da öyrənilir.

Bu məqsədlə hazırlanmış «Level» adlanan yeni qurğu ələ taxılan və əsməni dayandıran sabitləşdirici qulpdan ibarətdir. Qulpa qaşıq və ya çəngəlli taxma quraşdırılmışdır. «Level» inteqrasiya edilmiş akkumulyatordan enerji alır. Şirkət nümayəndələrinin fikrincə, qurğunu bir saat yükləmək kifayətdir. Bu, üç dəfə qida qəbul etməyə imkan verir.

«Level»in «Steady» adlanan ilk versiyası hələ 2013-cü ildə nümayiş etdirilib. Lakin o, az elastikliyə malik idi və əlin əsməsini tamamilə aradan qaldıra bilmirdi. Bundan başqa, «Steady» dizaynın funksionallığına görə də «Level»dən geri qalırdı. Yeni versiyanın ələ taxılması və istifadəsi daha rahatdır, qiyməti isə 195 ABŞ dollarıdır.

ekologiya

## Hər beş avtomobildən biri...

Norveçdəki nəqliyyat vasitələrinin ümumi sayı ilə müqayisədə dünyada elektromobillərin ən böyük sayı bu ölkədə qeydə alınıb. Norveç KİV-ləri ölkənin elektriklə işləyən avtomobillər assosiasiyasına istinadla xəbər verirlər ki, bu il Krallıqda elektromobillərin sayı 100 min maşın təşkil edib. Hesablamalara görə, ətraf mühitə ziyan vurmayan elektromobillər sayəsində Norveçdə atmosferə buraxılan karbon qazı tullantıları il ərzində 200 min ton azalıb.

Hökumət avtomobillərin bu növünü təbliğ etmək üçün bir il əvvəl qanunvericiliyə düzəlişlər edib. Daxiliyanma mühərrikli maşınlardan fərqli olaraq, elektromobil sahiblərinə vergi güzəştləri tətbiq edilib. Bu maşınların sahiblərindən parklama və şəhər kənarında gediş üçün rüsum tutulmur, avtobus xətlərindən istifadə etməyə icazə verilir, doldurucu stansiyaların sayı isə durmadan artır.

Əhalisi 5,2 milyon nəfər olan fyordlar ölkəsində hər min sakinə ümumən 19 elektromobil qeydə alınıb ki, bu da ölkədəki bütün maşınların 20 faizini təşkil edir. Amma Norveç bununla kifayətlənmək niyyətində deyil. Mövcud plan qarşıdan gələn üç ildə elektromobillərin sayını 400 minə çatdırmağı nəzərdə tutur. Əlli min elektromobili nəzərdə tutan ilkin məqsədə 2015-ci ilin mayında nail olduqdan sonra Norveç hökuməti belə maşınların satışını təşviq etməyə başlayıb.

Ancaq hökumətdən bildiriblər ki, gələcəkdə bu cür stimullaşdırıcı tədbirlər dayandırılacaq. Elektromobillərin böyük ekoloji üstünlükləri olsa da, bəzi alimlər belə maşınların iqtisadi səmərəliliyini sual altına qoyurlar.

tarix

## Eksponatların «ikinci həyatı»



Mədəni-tarixi irsimizin tədqiqi, təbliği və mühafizəsini həyata keçirən Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi öz fondunu zənginləşdirmək məqsədilə müxtəlif tarixi dövrlərə aid maddi mədəniyyət nümunələrinin qəbulunu davam etdirir. Muzeydən bildirilib ki, belə materiallardan biri İkinci Dünya müharibəsi dövrünə aid əsgər dəbilqəsidir. Muzeyə təhvil verilən zaman dəbilqənin saxlanma vəziyyəti yaxşı olmadığı və bərpaya ehtiyac duyulduğu üçün muzeyin «Bərpa laboratoriyası»na yönləndirilib. Laboratoriyanın bərpaçı-rəssamı Əjdər Qafarov tərəfindən eksponata ikinci həyat verilib. Kimyəvi məhlullar vasitəsilə dəbilqənin üzərindən pas təbəqəsi təmizlənib və xüsusi qoruyucu maddə çəkilib.

Qədim və zəngin mədəniyyətimizi, müxtəlif tarixi dövrləri, milli adət-ənənələrimizi özündə təcəssüm etdirən eksponatları qorumaq, bərpa və konservasiya etmək, gələcək nəsillərə ötürmək böyük məsuliyyət tələb edir. Muzeydə bu əhəmiyyətli missiya layiqincə həyata keçirilir. Hazırda əsgər dəbilqəsi muzeyin «Silahlar və bayraqlar» fondunda mühafizə olunur.

araşdırma

## Bəşəriyyəti məhv etmək gücündə...

Edinburq Universitetinin alimləri insanlar arasında sürətlə çoxalan, münasib şəraitdə bütün dünya miqyasında yayılmağa qadir olan müxtəlif növ 37 virus müəyyən ediblər. Tədqiqat qrupunun rəhbəri Mark Vulhauz bildirib ki, bu virusların doğurduğu xəstəliklərin nəzarətdə saxlamaq bütün dünyada tibb xidmətlərinin əsas vəzifələrindən biri olmalıdır, çünki vəziyyət nəzarətdən çıxarsa, belə xəstəliklər pandemiya xarakteri ala bilər.

Alimlər «ebola» qədər sürətlə yayılan Yaxın Şərq respirator sindromu koronovirusunu və həşəratlar vasitəsilə yayılan bir sıra digər virusların doğurduğu xəstəlikləri bəşəriyyət üçün potensial təhlükə adlandırıblar.

Bu virusların səbəb olduğu xəstəliklərin çoxunun daşıyıcısı heyvanlardır, ancaq ekoloji şəraitin dəyişməsi bəşəriyyəti kütləvi pandemiyaya gətirib çıxara bilər.




ELAN

«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.

Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


Müdriklər deyib ki...



*«Həyatını elə şərtlər içində qurmalısan ki, zəhmət qaçılmaz olsun. Zəhmətsiz saf və xoş həyat ola bilməz..*

*A.P.Çexov (1860-1904)*